## Ərdoğan: "Hədəfimiz Rusiya və Ukrayna liderlərini ən qısa vaxtda görüşdürməkdir"



**Hədəfimiz Rusiya və Ukrayna liderlərini görüşdürməkdir.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

"Artıq hədəfimiz Rusiya və Ukrayna liderlərini ən qısa vaxtda bir araya gətirərək müharibəni dayandırmaqdır", - Ərdoğan qeyd edib.





## Keçmiş ABŞ kəşfiyyatçısına Rusiya vətəndaşlığı verilib

**Rusiya Prezidenti Vladimir Putin keçmiş ABŞ kəşfiyyatçısı Edvard Snoudenə Rusiya vətəndaşlığı verib.**

APA-nın Moskva müxbirinin məlumatına görə, Rusiya prezidenti Snodenə vətəndaşlığı verilməsi haqqında fərman imzalayıb.

*Qeyd edək ki, Edvard Snouden 2013-cü ildən Moskvadadır. ABŞ hakimiyyəti onu dövlət əmlakını mənimsəməkdə və dövlət sirlərini yaymaqda ittiham edir.*


❒ № 174 (5695), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 sentyabr 2022-ci il (çərşənbə axşamı)






## Gedişhaqqı ilə bağlı hökumətə təkliflər veriləcək

**Sərnişindaşıma sahəsində fəaliyyət göstərən özəl nəqliyyat şirkətlərinin ictimai nəqliyyatda mövcud problemlərin aradan qaldırılması, nağdsız ödənişə tam keçidin sürətləndirilməsi və bu sahədə qiymət siyasətinə yenidən baxılması müraciəti ilə bağlı təkliflər hazırlanacaq.**

Bu barədə "Şərq"ə Tarif Şurasından məlumat verilib.

Bildirilib ki, müraciətdə göstərilən məsələlərlə bağlı optimal qərarın verilməsində kompleks yanaşmanın tələb olunduğunu nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə bu sahədə xidmətin davamlılığının və rəqabətin təmin edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə aidiyyəti dövlət qurumlarının, bu sahədə fəaliyyət göstərən iri təsərrüfat subyektlərinin nümayəndələrindən ibarət işçi qrupun yaradılması və qaldırılan məsələlərin həlli yollarının müəyyənləşdirilməsi üçün təkliflər hazırlanması tapşırılıb. Təkliflər hazırlanaraq hökumətə təqdim olunacaq.



## Normallaşma prosesi müzakirə olunub

Hikmət Hacıyev ABŞ Dövlət katibinin köməkçisi ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid olə görüşüb.**

"Şərq" xəbər verir ki, bu barədə Hikmət Hacıyev tviter hesabında bildirib. H.Hacıyev və K.Donfried arasında keçirilmiş görüşdə münasibətlərin normallaşdırılması prosesinin hazırki vəziyyəti, sülh müqaviləsi, sərhədlərin delimitasiyası və nəqliyyat məsələləri, o cümlədən ikitərəfli strateji əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

# Anım Günü heç vaxt unudulmayacaq

## Bu gün Azərbaycan tarixinin ən qəhrəman və ən fəxarətli səhifəsi yazılıb



**Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən - 27 sentyabr Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş şəhidlərimizə dərin ehtiramın ifadəsidir.**

Anım Günü respublikamızın bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə şəhidlərimizin xatirəsi qürurla yad edilir.

2020-ci ilin sentyabrın 27-də başlamış və 44 gün davam etmiş Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə göstərdi, bir yumruq kimi birləşərək əsl həmrəylik nümayiş etdirdi.

(səh.2)

## Azərbaycan mediasının tarixində yeni səhifə açıldı

Media Reyestrinə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər



**Prezident İlham Əliyev dünən imzaladığı Fərmanla "Media Reyestrinin aparılması Qaydaları"nı təsdiqləyib.**

Fərmana əsasən, Medianın İnkişafı Agentliyinə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb.

Bu Fərman Azərbaycan mediasının tarixində yeni səhifənin açılması kimi xarakterizə edilə bilər.

(səh.2)

## Makron Ermənistana danışıqları bərpa etməyə çağırıb

"Rəsmi Paris əmindir ki, dialoqun təxirə salınmadan davam etdirilməsi lazımdır"



**Fransa Ermənistan və Azərbaycan arasında gərginliyin azaldılmasına və danışıqların bərpasına çağırır.**

Bunu Fransa Prezidenti Emmanuel Makron Parisdə Ermənistanın Baş naziri Nikol Paşinyanla danışıqlara başlamazdan əvvəl deyib.

"Rəsmi Paris əmindir ki, dialoqun təxirə salınmadan davam etdirilməsi lazımdır", - o, bütün məsələlərin yalnız danışıqlar yolu ilə həll edilməsinə işarə edib.

(səh.3)





## Ermənistan KTMT-nin Qazaxıstandakı təlimlərində iştirak etməyəcək

**Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Qazaxıstanda keçiriləcək təlimlərində iştirakdan imtina edib.**

Bu barədə Ermənistan Müdafiə Nazirliyinin məlumatında bildirilib.

Qeyd olunub ki, Azərbaycan-Ermənistan sərhədindəki vəziyyət nəzərə alınmaqla Ermənistan silahlı qüvvələrinin bölmələrinin KTMT-nin Qazaxıstanda keçiriləcək təlimlərində iştirakdan imtina edilməsi qərara alınıb.

*Qeyd edək ki, Qazaxıstanda KTMT-nin çevik reaksiya qüvvələrinin təlimləri sentyabrın 26-dan oktyabrın 8-dək keçirilməsi planlaşdırılıb.*

## Ölən yoxdur

35 yeni yoluxma faktı qeydə alınıb





**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 35 yeni yoluxma faktı qeydə alınıb, 76 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 820 858 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 809 673 nəfər müalicə olunaraq sağalıb, 9 903 nəfər vəfat edib, aktiv xəstə sayı 1 282 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 973, hazırkı dövrədək isə 7 238 737 test aparılıb.*



## Səbuhi Məmmədlinin səhhəti qəfil pisləşib

"Yüksək şəkər gözlərimin fəaliyyətinin zəifləməsinə də səbəb olub"

(səh.5)

## Vəziyyət gərgindir

Jalə Təbrizi: "İranda camaat indiki rejimlə davam edə bilmir, ölkədə aclıq, yoxsulluq da baş alıb gedir"

(səh.4)



## Azərbaycanda 3-cü kurs tələbəsi intihar etdi



**Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi intihar edib.**

Bu barədə "Azərbaycan universitetləri" səhifəsində məlumat verilib.

Bildirilib ki, akademiyanın "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasının III kurs tələbəsi Ülvi Xankişiyev intihar edərək həyatına son qoyub.



# 8 yol xəritəsi icra olunmaqdadır

## Azərbaycan Rusiya ilə yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərinə malikdir

**Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodin sentyabrın 26-da Azərbaycana rəsmi səfərə gəlib. Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini Prezident İlham Əliyev də qəbul edib.**

Ölkə başçısı vurğulayıb ki, Azərbaycan və Rusiya dövlət başçılarının müntəzəm görüşləri dinamizmin saxlanmasına şərait yaradır. Dövlət başçısı qeyd edib ki, Dövlət Duması ilə də, Federasiya Şurası ilə də həm rəhbərlik səviyyəsində, həm də deputatlar səviyyəsində daim əlaqə saxlanılıb: "Bu, ölkələrimiz arasında dövlətlərarası münasibətlərin çox mühüm amilidir və bu münasibətlər çox müsbət dinamikaya malikdir. Əlbəttə, dövlət başçıları səviyyəsində müntəzəm görüşlər də dinamizmin saxlanmasına şərait yaradır. Bütövlükdə, bizim münasibətlərimizin gündəliyinə fikir versək, o, kifayət qədər genişdir, praktiki olaraq bütün sahələri əhatə edir. Əməkdaşlığımızın o qədər də fəal olmadığı sahələri göstərmək daha asan olar. Ona görə ki, həm siyasi, həm iqtisadi, həm nəqliyyat, energetika və humanitar sahələrdə bütün göstəricilər göz qabağındadır, biz həqiqətən yaxşı dinamika görürük". Prezident vurğulayıb ki, iqtisadi-ticari sahədə, informasiya, kommunikasiya, nəqliyyat və digər sahələrdə səkkiz yol xəritəsi razılaşdırılıb və həyata keçirilir: "Hər bir istiqamət üzrə qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsinin dəqiq qrafiki var və icraya nəzarət edilir: "Əlbəttə, regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir. Biz bu yaxınlarda Səmərqənddə Rusiya Prezidenti ilə görüşümüzdə bu barədə danışmışıq. Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir. Bizim gündəliyimiz kifayət qədər birmənalıdır. Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq".

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodin də bildirib ki, Moskva Bəyannaməsində xüsusi vurğulanır ki, parlamentlərarası əlaqələr inkişaf etdirilməlidir: "Münasibətlərimiz çox cəhətdən Sizin və bizim Prezidentimizin sayəsində inkişaf edir. Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti Haqqında Bəyannamə imzalanıb. Bu, həqiqətən strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyədir. Buna görə parlamentlərarası əlaqələri inkişaf etdirməyimiz son dərəcə vacibdir. Biz bu barədə danışmışıq. İş elə gətirib ki, pandemiya həqiqətən planlarımızda dəyişiklik edib. Parlamentlərarası qarşılıqlı fəaliyyət barədə danışmalı olsaq, hər halda bu fəaliyyətin əsasını görüşlər, dialoq, kommunikasiya təşkil edir. Əlbəttə, bütün bunlar videokonfrans rabitə rejimində həyata keçirilib. Bu format əsas olub. Lakin bilavasitə söhbət olmasa, münasibətlərin videokonfrans rabitə rejimində olduğu kimi inkişafı barədə danışmaq çətindir. Buna görə pandemiya ilə bağlı vəziyyət yüngülləşməyə başlayan kimi biz bundan istifadə etdik, həmkarlarımızla razılığa gəldik ki, hökmən görüşək və münasibətlərimizin inkişafı məsələlərini müzakirə edək. Ona görə ki, Rusiya Federasiyasının və Azərbaycan Respublikasının prezidentləri tərəfindən imzalanmış Bəyannamədə xüsusi vurğulanır ki, parlamentlərarası əlaqələrimiz inkişaf etdirilməlidir. Buna görə biz kommunikasiya formatlarını, yeni yanaşmaları müzakirə edəcəyik ki, qanunvericiliyin təminatı məsələlərinin, dövlət başçıları səviyyəsində müzakirə edilən məsələlərin həllinə real töhfə verək".

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Rusiya ilə yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Deputatın sözlərinə görə, ölkə başçıları arasında strateji tərəfdaşlığın dərinləşdirilməsinə dair Müttəfiqlik haqqında Bəyannamə imzalanıb:** "Geniş əməkdaşlığı özündə ehtiva edən 8 yol xəritəsi icra olunmaqdadır. Dövlət rəhbərlərinin qarşılıqlı səfərləri ölkələrimiz arası münasibətlərin daha da genişlənməsinə imkan verəcək. Dövlət Dumasının sədrinin ölkəmizə rəsmi səfərini də yüksək dəyərləndirirəm. Vyaçeslav Volodinin səfəri ölkələrimizin parlamentləri arasında əməkdaşlığının genişləndirilməklə dövlət başçılarımız arasında imzalanmış Bəyannamənin daha ətraflı şəkildə icrasına yeni impuls verəcək. Parlamentlərarası əməkdaşlığın daha da möhkəmlənməsi zəruridir və imzalanmış sənədlərin ratifikasiyası əməkdaşlığın reallaşdırılması üçün hüquqi bazanı formalaşdırır. Rusiya Dövlət Dumasının sədrinin Azərbaycana səfəri çərçivəsində çoxsaylı görüşlər də nəzərdə tutulub. Belə səfərlər ölkələrimiz arasında əməkdaşlıq üçün istifadə olunmamış yeni potensialın üzə çıxarılmasına və icrasına töhfə verir".

**İsmayıl**

# Azərbaycan mediasının tarixində yeni səhifə açıldı

## Media Reyestrinə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər



**Prezident İlham Əliyev dünən imzaladığı Fərmanla "Media Reyestrinin aparılması Qaydaları"nı təsdiqləyib. Fərmana əsasən, Medianın İnkişafı Agentliyinə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə Media Reyestrinin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb.**

Bu Fərman Azərbaycan mediasının tarixində yeni səhifənin açılması kimi xarakterizə edilə bilər. Media Reyestrində media subyektləri, onların redaksiyaları və jurnalistlərə dair elektron hökumət portalında mövcud olan məlumatlar inteqrasiya, digər məlumatlar isə istifadəçi tərəfindən daxil edilməklə sistemləşdiriləcək. Bu, jurnalist fəaliyyəti ilə məşğul olan şəxslər haqqında məlumatların vahid bazada toplanması deməkdir. Bununla belə, bu proses məcburi deyil. Media qurumlarının, eləcə də jurnalistlərin Media Reyestrinə daxil edilməsi könüllülük prinsipi əsasında həyata keçiriləcək. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vəsiqələr təqdim olunacaq. Reyestrə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqəsinin təqdim olunması media mühitinin sağlamlaşması baxımından çox müsbət və vacib addımdır. Bu, media mühitinin təsadüfi "jurnalistlərdən" təmizlənməsinə də yardım edəcək. Diqqət yetirməli məqamlardan biri budur ki, mətbuat orqanları işçisi olan jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqil olacaq, media qurumları ənənəvi qaydada işçilərinə redaksiyanın vəsiqəsini verə biləcək. Reyestrin aparılması müəyyən məsələlərin həllini tapmasında mühüm rol oynayacaq. Media Reyestri media subyektlərinin və media sahəsində işləyən şəxslərin fəaliyyətinin, eyni zamanda, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılmasına şərait yaradacaq. Reyestr medianın inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslandırmasının formalaşdırılmasına imkan verəcək. Digər mühüm amil mətbuat orqanlarının və jurnalistlərin hüquqları ilə bağlıdır. Media Reyestrinin aparılması media subyektlərinin və jurnalistlərin hüquqlarının daha yüksək səviyyədə müdafiəsini təmin edəcək. Reyestrə düşmüş media orqanı və jurnalist artıq hüquqlarının qorunması üçün mühüm istinad nöqtəsinə malik olacaq. Media cameəsini maraqlandıran əsas məsələlərdən biri güzəşt və imtiyazlardır. Uzun illərdir, mətbuat işçilərinə müxtəlif sahələr üzrə güzəşt və imtiyazların verilməsinin mümkünlüyü ətrafında təkliflər səslənir, müzakirələr aparılır. Lakin bu məsələdə ən ciddi problem kimin həqiqi jurnalist sayılması idi. Media Reyestri bu mübahisələrə də son qoymuş olacaq. Məhz Media Reyestrinə daxil edilmiş media subyektləri və jurnalistlər müxtəlif xarakterli güzəşt və imtiyazlardan yararlana biləcəklər. Reyestrin aparılmasının keyfiyyətli xəbər istehsalının təmin edilməsi, ən əsas məsələlərdən olan müəlliflik hüquqlarının qorunması baxımından da vacib amildir. Eyni zamanda Media Reyestri jurnalistlərin akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsini də təmin edəcək. Bütün sadalanan və sadalanmayan məqamları nəzərə aldıqda belə qənaətə gəlmək olur ki, Media Reyestri Azərbaycan mətbuatının inkişafı üçün yeni bir mərhələnin əsasını təşkil edəcək.

**Jurnalistlərin Həmkarlar İttfaqının sədri, media eksperti Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında bildirib ki, "Media Reyestrinin aparılması Qaydaları" haqqında Prezidentin Fərmanı Azərbaycan mediasının saflaşdırılması, sağlamlaşdırılması və peşəkarlaşdırılması yönündə verilmiş çox mühüm bir qərardır.** M.Ələsgərli qeyd edib ki, şəxsən o, Media Reyestrinin yaradılması təşəbbüsünü ilk gündən, yəni onun "Media haqqında" qanunun layihəsində nəzərdə tutulduğu gündən dəstəkləyib: "Media Reyestrinin aparılması qaydalarında nəzərdə tutulan maddələr, əslində KİV və peşəkar jurnalist anlayışı üçün mövcud olan meyarlardırlar. Reyestrin formalaşdırılması, orada nəzərdə tutulan prinsiplərin tətbiq edilməsi ölkədə peşəkar media subyektləri və peşəkar jurnalistlərlə həvəskar xəbər istehsalçısının sərhədlərini müəyyənləşdirəcək. Bu, həm media işçiləri, həm də cəmiyyət üçün çox faydalıdır. Reyestrə düşməyin mühüm şərtlərindən biri etik davranış qaydalarına əməl etməkdir. Qaydaların 6.6.11-ci maddəsində bu ifadə çox açıq şəkildə təsvir edilib. Etik kodeksə əməl etmək doğru, düzgün, qərəzsiz informasiya istehsal etmək deməkdir ki, bu da cəmiyyətimiz üçün çox faydalıdır.

Bu qaydaların qüvvəyə minməsi ilə həm də ölkədə ilk dəfə olaraq, sərbəst çalışan jurnalistlərin hüquqları tanınmış olur. Onlar adı reyestrdə olan KİV subyektlərinin biri ilə mülki müqavilə bağlamaqla, jurnalist vəsiqəsi ala və hüquqlarını reallaşdıra biləcəklər".

**Ekspert vurğulayıb ki, Reyestrin tətbiq edilməsi həm də ölkədəki peşəkar KİV subyektləri və peşəkar jurnalistlərin kəmiyyətini müəyyənləşdirməyə, statistik məlumat bazası yaratmağa yardım edəcək:** "Bu statistikanın əldə edilməsi dövlətə də imkan verəcək ki, medianın inkişafı üçün effektiv proqramlar hazırlasın və icra etsin. Qaydalarda diqqətçəkən daha bir mühüm bənd ora daxil olmağın könüllülük prinsipi əsasında qurulmasıdır. Əgər hansısa KİV subyekti reystrə daxil olmaq istəməsə, öz fəaliyyətlərini köhnə qaydada davam etdirə biləcəklər. Bir sözlə, qaydalar çox mükəmməl hazırlanıb və media ictimaiyyəti üçün yalnız faydalılıq gətirir".

**İsmayıl Qocayev**



# Media cameəsinin sərhədləri aydınlaşır

## "Vahid media reyestrinin yaradılması ölkəmizdə real jurnalistikanın kimlərdən ibarət olduğu gerçəyini göstərəcək"

**Prezident İlham Əliyev "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.**

Qaydalarda yer alan önəmli məqamlardan biri də Media Reyestrinə daxil edilmiş jurnalistlərə jurnalist vəsiqələrinin verilməsi məsələsidir.

**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı bu barədə "Şərq"ə danışarkən bildirib ki, Medianın İnkişafı Agentliyi bunun könüllü proses olduğunu dəfələrlə vurğulayıb:** "Reyestrdən keçmək istəyən jurnalistlər, media qurumları bunun üçün müraciət edə bilərlər. İstəməyənlərin isə jurnalist fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur. Bu, məsələnin birinci müsbət tərəfidir. Ümumilikdə hesab edirəm ki, media reyestrinin aparılması Azərbaycan jurnalistikasında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı olacaq.

Dünyanın bir çox ölkəsində rast gəlinən bu praktikadan xüsusilə qardaş ölkə Türkiyə də uzun illərdir, istifadə edir. Biz qəbul etməliyik ki, hazırda ölkəmizdə jurnalistlərin, media nümayəndələrinin adından istifadə edən, bu peşə ilə məşğul olmayan, onu özünə qalxan edib qeyri-qanuni işlərlə məşğul olan şəxslər var.

Təbii ki, jurnalistikamızda sayı çox olmayan bu şəxslər ümumilikdə cəmiyyətdə Azərbaycan jurnalistlərinin imicini korlayan addımlar atırlar. Bu mənada vahid bir media reyestrinin yaradılması ölkəmizdə real jurnalistikanın kimlərdən ibarət olduğu gerçəyini göstərəcək.

Bu reyestr haqqı olan jurnalistlərə bir neçə istiqamətdə faydalı olacaq. Ölkəmizdə real jurnalistilərin sayı bəlli olacaq. Beləcə, Medianın İnkişafı Agentliyi də həmin jurnalistlər üçün sosial-iqtisadi dəstək paketləri hazırlayacaq. Jurnalistlərin dövlət dəstəklərindən istifadəsinə şərait yaradacaq.

Bu addım jurnalistlərin cəmiyyətdə ictimai nüfuzunun yüksəldilməsi və onların ictimaiyyət tərəfindən daha ciddi qəbul edilməsinə gətirib çıxaracaq".

**Günəş**

# Ermənistanı sülhə məcbur etmək üçün Kremllə dialoq önəmlidir

## Volodinin Bakıya səfəri hazırkı dönəm üçün aktualdır



**Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodin sentyabrın 26-da Azərbaycana rəsmi səfərə gəlib. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Vyaçeslav Volodini Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və digər rəsmi şəxslər qarşılayıblar.**

Bundan sonra isə Azərbaycan Respublikasını Prezidenti İlham Əliyev Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı Prezidet İlham Əliyev bildirib:

"Əlbəttə, regional təhlükəsizlik məsələləri həmişə bizim münasibətlərimizin gündəliyindədir. Biz bu yaxınlarda Səmərqənddə Rusiya prezidenti ilə görüşümüzdə bu barədə danışmışıq. Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir. Bizim gündəliyimiz kifayət qədər birmənalıdır. Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq".

Dövlət Dumasının sədri isə parlamentlərarası əlaqələrin son dərəcə vacib olduğunu deyib.

"Münasibətlərimiz çox cəhətdən sizin və bizim Prezidentimizin sayəsində inkişaf edir. Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti Haqqında Bəyannamə imzalanıb. Bu, həqiqətən strateji tərəfdaşlıq əsasında əldə edilmiş çox ciddi səviyyədir. Buna görə parlamentlərarası əlaqələri inkişaf etdirməyimiz son dərəcə vacibdir".

**Görüşü "Şərq"ə şərh edən politoloq İlyas Hüseynov bildirib ki, Rusiya Dövlət Dumasının sədrinin Azərbaycana səfəri hər iki ölkənin parlamentlərarası əlaqələrinin güclənməsində mühüm əhəmiyyət kəsb edir:** "Vətən müharibəsindən sonra Rusiya ilə Azərbaycan arasında müttəfiqlik və qarşılıqlı fəaliyyət haqqında bəyannamə imzalanmışdı. Bu sənəd münasibətlərin strateji əhəmiyyətini bir qədər də artırmışdı. Artıq isə yeni əlaqələrin qurulması üçün potensial zəmin yaranıb.

Bu baxımdan parlamentlərarası mexanizimlərin işə düşməsi, hazırkı dönəm üçün çox önəmlidir. Səfəri etibarlı tərəfdaşlığın qurulması baxımından da aktual hesab etmək olar.

Eyni zamanda nəzərə almaq lazımdır ki, Ermənistanla sülh müqaviləsinin imzalanmasında da Rusiya vasitəçi kimi çıxış edir.

Duma Sədrinin Azərbaycan səfəri həm də sülhü pozmaq istəyən Ermənistanın addımlarının qarşısının alınması ilə də müşayiət olunur. Ona görə də Ermənistanı sülhə məcbur etmək üçün Kremllə dialoqun qurulması önəmlidir.

Digər tərəfdən sülməramlıların Qarabağda yerləşməsini nəzərə alsaq, Rusiya ilə dialoqun qurulması bu zonanın təhlükəsizliyinin təmin edilməsində də mühüm aspektləri əhatə edir".

**Nihat Müzəffər**

# İqtisadi sanksiyalar Rusiyanı durdurmayacaq

## Kreml müharibəni bitirmək üçün referendumu gerçəkləşdirəcək



**Yaponiya hökuməti Rusiyaya qarşı yeni sanksiyalar paketini təsdiqləyib. Tokio müdafiə sənayesi ilə bağlı 21 təşkilatı siyahıya əlavə edib və kimyəvi silah istehsalı ilə bağlı malların tədarükünə qadağa qoyub. Bu barədə Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyi məlumat yayıb.**

Xatırladaq ki, rəsmi Tokio ötən həftə sanksiyaları genişləndirəcəyini açıqlamışdı. O, bunu qondarma Donetsk və Luqansk "respublika"ları, həmçinin Xerson və Zaporojye vilayətlərində Rusiyaya birləşmək ilə bağlı "referendum" keçirməklə izah edib. Yeni sanksiyaların oktyabrın 3-dən qüvvəyə minəcəyi deyilir.

**Sanksiyların Rusiyanı geri çəkilməyə məcbur edə bilməyəcəyini deyən siyasi şərhçi Turab Rzayev "Şərq"ə bildirib ki, rəsmi Moskva bütün bunlara hazırlıqlı idi:**

"Kremlə qarşı sanksiyaların davamlı olacağını düşünürəm. Xüsusilə də Qərbdən və anglo-sakson ölkələrindən böyük sanksiyalar gözlənilir. Digər tərəfdən Avropa İttifaqı da qanun pozulmasına qarşı prosesə qoşulacağını bildirib. Buradakı əsas mövzu isə sanksiyalardan sonra Rusiyanın Xerson və Zaporojyeni öz ərazisi kimi elan etmək cəhdidir. Bunun ardınca isə həmin arazilərə hücum, rəsmi Moskvaya hücum kimi qiymətləndiriləcək.

Sual yaranır ki, bəs Qərb Ukraynanı əvvəlki kimi dəstəkləyə biləcəkmi? Çünki onu dəstəkləmək və silahların ötürülməsi, rəsmi Kiyevin Rusiya ərazisinə hərbi təcavüz kimi qiymətləndiriləcək. Bununla da Qərb də Kremlin ərazisinə hücum etmiş sayılacaq. Ümumilikdə isə referendum rəsmi Moskvanın son şansıdı və onlar dünyanı nüvə silahı ilə hədələmək üçün sözügedən məsələyə əl atıb.

Belə qənaətə gəlmək olar ki, hansısa iqtisadi sanksiya Kremli dayandıra bilməyəcək. Ona görə ki, indiki vəziyyətdə Rusiya məğlubiyyətini etiraf edib geri çəkilməlidir. Bu da onlar üçün çöküşə bərabərdir. Rəsmi Moskva iqtisadi sanksiyaların ağırlığına baxmayaraq müharibəni bitirmək üçün referendumu gerçəkləşdirəcək.

Referendumun ardınca isə Qərb ölkələrini hərbi yardımları dayandırmağa, Avropa ölkələrini isə neft-qaz danışıqları aparmağa məcbur edəcəklər".

**Nihat Müzəffər**



# Anım Günü heç vaxt unudulmayacaq

## Bu gün Azərbaycan tarixinin ən qəhrəman və ən fəxarətli səhifəsi yazılıb

İsmayıl Qocayev

**Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən - 27 sentyabr Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Anım Günü respublikamızın bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə şəhidlərimizin xatirəsi qürurla yad edilir.**

2020-ci ilin sentyabrın 27-də başlamış və 44 gün davam etmiş Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə göstərdi, bir yumruq kimi birləşərək əsl həmrəylik nümayiş etdirdi. Məhz bu həmrəylik nəticəsində düşmənə sarsıdıcı zərbələr vuruldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, dəmir iradəsi, uzaqgörən strategiyası, uğurlu xarici-daxili siyasəti nəticəsində xalqımız tarixinin ən möhtəşəm Qələbəsini qazandı.

Vətən müharibəsində 3 minə yaxın qəhrəman Azərbaycan övladı şəhidlik mərtəbəsinə yüksəldi, minlərlə vətəndaşımız qazi oldu, sağlamlığını itirdi. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmən günahsız mülki insanları hədəfə alaraq, çoxsaylı müharibə cinayətləri törətdi. Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən Mingəçevir və Yevlax şəhərləri, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutuldu. Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı. Lakin təcavüzkar Ermənistan xalqımızın qələbə əzmini sarsıda bilmədi. Çox qısa zamanda "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. 30 il işğal altında qalmış kəndlər, şəhərlər bir-birinin ardınca erməni işğalçılarından təmizləndi. Azərbaycan Ordusunun həyata keçirdiyi unikal əməliyyatla noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olundu. Prezident İlham Əliyev Şuşanın işğaldan azad edilməsi xəbərini Şəhidlər Xiyabanından Azərbaycan xalqına müraciətində bəyan etdi. "Şuşasız bizim işimiz yarımçıq olar", - deyən Müzəffər Ali Baş Komandan müasir müstəqil dövlətimizin banisi ümummilli lider Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdi. Şuşanın işğaldan azad edilməsi, bu əzəmətli məkana üçrəngli bayrağımızın sancılması Vətən müharibəsində dönüş nöqtəsi oldu. Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 10-da tarixi qələbəmizlə başa çatdı. Həmin gün Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanatla Silahlı Qüvvələrimizin hərbi cəbhədəki möhtəşəm qələbəsi diplomatik sahədə də rəsmiləşdirildi. Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur qaldı. Beləliklə, xalqımızın 30 illi yurd həsrətinə son qoyuldu, ədalət bərpa edildi. Eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə, Azərbaycan Silahlı Qüvvələri güclü ordu, xalqımız isə böyük, məğrur, yenilməz olduğunu bir daha təsdiqlədi. Ermənistanın kapitulyasiya aktı olan 10 noyabr Bəyanatı ilə Kəlbəcər, Laçın və Ağdam rayonları qan tökülmədən Azərbaycana qaytarıldı. Birinci və İkinci Qarabağ müharibələrində şəhid olan Vətən oğullarının qisası döyüş meydanında alındı. Azərbaycanın dünyaya səs salan "Dəmir yumruq" əməliyyatı nəticəsində Ermənistan diz çökdü. Dünya kimin haqlı, kimin haqsız olduğunu, beynəlxalq hüququn zamana və məkana görə tətbiqinin sonda hansı nəticələrə gətirib çıxardığını gördü. Vətən müharibəsinin ədalətin, qürurun, milli ləyaqətin, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğu bütün dünyaya bəyan edildi. 27 Sentyabr Böyük Qələbəmizə aparan yolun başlanğıcıdır. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsində dövlətimizin başçısının da dəfələrlə vurğuladığı kimi, bizim həmrəyliyimiz önəmli rol oynadı. Başqa sözlə, xalq-Prezident-ordu vəhdəti ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı.

**Milli Məclisin sədr müavini Adil Əliyev deyib ki, Anım Günü şəhidlərimizin xatirəsini tarixi yaddaşımıza həkk edib.** Deputatın sözlərinə görə, 27 sentyabr 2020-ci ildə təcavüzkar Ermənistanın Azərbaycanın o zaman işğal altında olan torpaqlarında bizə qarşı törətdiyi növbəti hərbi təxribatlara cavab olaraq Ordumuz əks-hücum əməliyyatlarına başladı. Nəticədə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, qəhrəman əsgərlərimizin fədakarlığı və şücaəti, Prezident-Ordu-Xalq birliyi sayəsində torpaqlarımız işğaldan azad edildi. Ərazi bütövlüyümüz bərpa olundu və düşmənə dəmir yumruqla sarsılmaz zərbə endirildi. Bununla da Azərbaycan tarixinin ən qəhrəman və ən fəxarətli səhifəsi yazıldı: "Amma qəhrəmanlıq həm də acılar, itkilər, qazilər və şəhidlər deməkdir. Vətənimizin azadlığı uğrunda şəhidlər verdik, qazilərimiz oldu. Onların əziz xatirəsini əbədiləşdirməkvə yüksək ümummilli ehtiramımızı ifadə etmək üçün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başlandığı günün Anım Günü kimi qeyd olunması haqqında 2 dekabr 2020-ci ildə sərəncam verdi. Qeyd olundu ki, Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir. Bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Bundan əlavə, Bakıda Vətən müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi inşa olunacaq, İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaq. Vətən müharibəsində böyük zəfər münasibəti ilə 17 yeni orden və medal təsis edilib. Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən təltif olunublar. Bu tədbirlər bütün şəhidlərimizin xatirəsini əbədiləşdirməyə, eləcə də qazilərimizə və Vətən uğrunda döyüşmüş qəhrəman əsgər və zabitlərimizə olan yüksək hörmət və ehtiramı ifadə etməyə xidmət edir.

Şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, əsgərlərimizin qəhrəmanlıqlarının tarixi yaddaşımıza həkk olunmasına xidmət edən tədbir və işlərdən əlavə, şəhid ailələrinin, qazilərin və müharibə iştirakçılarının rifahının və sosial vəziyyətinin yüksəldilməsi, təhsil, səhiyyə və məişət problemlərinin həll edilməsi daim dövlət başçımızın diqqət mərkəzindədir. Bu sahə prioritet istiqamət kimi müəyyən edilmiş və bu sahədə kompleks yanaşma tətbiq olunur".

Parlament üzvü bildirib ki, bu yanaşma təkcə Vətən müharibəsi deyil, eləcə də 1-ci Qarabağ müharibəsi iştirakçılarına və ümumiyyətlə, bütün şəhidlərimizə, qazı və müharibə iştirakçılarına şamil edilir: "Müharibədə əlini, qolunu itirmiş qazilərimiz üçün ən müasir protezlər təmin edilir, yaralanmış müharibə iştirakçılarının tibbi reabilitasiyası üçün işlər görülür. 10 mindən artıq şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Həm Birinci, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə Bakıda, Sumqayıtda, Abşeron rayonunda bu ilin sonuna qədər mənzillər veriləcək. Bugünədək müharibə əlillərinə 7 mindən artıq minik avtomaşını verilib. "YAŞAT" Fondu tərəfindən indiyədək 75 milyona yaxın vəsait toplanıb və müvafiq istiqamətlər üzrə həmin vəsaitin xərclənməsi davam etdirilir. Bu gün ictimaiyyət nümayəndələrimiz və sıravi vətəndaşlarımız da qəhrəmanlarımızdan öz diqqət və qayğısını əsirgəmir, müntəzəm olaraq onlarla bağlı silsilə tədbirlər keçirilir. Anım Gününün təsis edilməsi qəhrəmanlarımıza qarşı bu həssaslığımızı daha da möhkəmləndirir, şəhidlərimizin əziz xatirəsini tarixi yaddaşımıza əbədi həkk edir".

# Qadınlardan sonra tələbələr də ayağa qalxdı

## Tehran hökumətinin sərt reaksiyası, qan axıtması, xalqa silah çəkməsi rejimin sonunu gətirəcək




### İran öz-özünü dini müstəvidə tələyə salıb

**İranda 22 yaşlı Məhsa Əmininin öldürülməsi ilə başlayan etiraz aksiyaları geniş miqyas almaqdadır. Kütləvi etirazlar demək olar ki, ölkənin əksər vilayətlərinə yayılıb. Aksiya keçirilən şəhərlərin 90-a yaxınlaşdığı deyilir. Polislə ciddi qarşıdurma nəticəsində ölənlərin sayı 55 nəfər olub, yüzlərlə yaralının olduğu bildirilir.**

Aksiya iştirakçıları arasında əhalinin hər təbəqəsini görmək mümkündür. Qadınlardan sonra ali məktəb tələbələri də ayağa qalxıblar. Tələbələr aksiyada İran hökumətinin rəhbərinə qarşı "ölüm olsun diktatora" şüarları müşahidə olunub. Qəzəbli kütlə "Vuruşarıq, ölərik, İranı geri alarıq" şüarları da səsləndiriblər. Nümayişçilər onları meydanlardan uzaqlaşdırmağa çalışan təhlükəsizlik qüvvələrini daşa basıb və dəyənəklərlə qovublar. Güney Azərbaycanda yaşayan soydaşlarımız da etirazlarda aktiv iştirak edirlər. Azərbaycan türklərinin şüarları "Azadlıq, ədalət, milli hökumət" şəklindədir. Hərəkat yüksələn xətt üzrə getsə də, molla rejimi etirazçılara qarşı çox amansız davranır. Yüzdən artıq adam həbs edilib. Təzyiqlər nəticəsində aksiyaların zəifləməsi hədəflənir. Buna rəğmən, etirazların fars rejiminə ağır zərbə vuracağı ehtimal edilir.

> "Bu qədər var-dövləti olan bir ölkədə rejim molla hakimiyyətini qorumaq üçün o qədər səfeh qərarlar çıxarıb ki, xalq ilə hakimiyyət arasında böyük uçurum yaranıb"

**İrandakı etirazları "Şərq"ə təhlil edən siyasi elmlər doktoru Cümşüd Nuriyev deyib ki, aksiyaların səbəbi molla rejiminin ağılsız, düşünülməmiş və xurafat səviyyəsində siyasət yeritməsidir. Professorun sözlərinə görə, reallıqda İran nə həqiqi şəriətlə, nə də dünyəvi konstitusiya ilə idarə olunur:** "Hakimiyyətdə olan molla rejimi dinə ziyan vurmaqla məşğuldur. İslam dinini tamamilə siyasiləşdiriblər. Dini fundamental xurafatçılığa çeviriblər və çoxsaylı əlavələr ediblər. İslama gətirdikləri "yeniliklərin" həddi-hüdudu yoxdur. O qədər qeyri-dini məsələləri şişirdilib, qabardılıb ki, bu vəziyyət bezmiş xalqı daha da hövsələdən çıxarıb, ayağa qaldırıb. İranda normal idarəetmə və islam yoxdur. Mollalar dini əsası olmayan fətvalar verirlər və əfsuslar olsun ki, Azərbaycanda da onlara uyan səviyyəsiz "ilahiyyatçılar" var. Təsəvvür edin, molla təfəkkürlü bir "ilahiyyatçı" deyir ki, "üzümdən mürəbbə bişirmək və yemək olmaz, çünki üzümdən şərab çəkilir". İranda isə bunun on qatı rəzalət var. Ona görə də əhali arasında rejimdən narazılıq böyükdür. Hökumətin xarici və daxili siyasəti, iqtisadi vəziyyət həddindən artıq bərbaddır. İran öz-özünü dini müstəvidə tələyə salıb. Bu qədər var-dövləti olan bir ölkədə rejim molla hakimiyyətini qorumaq üçün o qədər səfeh qərarlar çıxarıb ki, xalq ilə hakimiyyət arasında böyük uçurum yaranıb".

**C.Nuriyev vurğulayıb ki, İranda çoxsaylı xalqlar var, amma ölkə əhalisinin sadəcə 35 faizini təşkil edən farslar özlərini "ari irq"in nümayəndəsi görürlər:** "Digər xalqları öz nökərləri hesab edirlər. Bəluclar, kürdlər, ərəblər, eyni zamanda türklər, qaşqarilər fars rejiminə qarşı ayağa qalxıblar. Kütləvi etirazlar üçün bir qığılcım lazım idi. Qığılcım da kürd qızı Məhsa Əmininin ölümü oldu. Bu hadisə yorulmuş, bezmiş, dözümü qalmayan İran əhalisini ayağa qaldırdı. Proses bir müddət davam edəcək. Artıq SEPAH aksiyaçılara qarşı odlu silahlardan istifadəyə keçiblər. Məhz Tehran hökumətinin sərt reaksiyası, qan axıtması, xalqa silah çəkməsi rejimin sonunu gətirəcək. Həm də görünür ki, ABŞ qəbul etdiyi layihəni reallaşdırmağa başlayıb. İranın Ermənistan siyasəti fiaskoya uğrayıb. Tehran hələ də anlamır ki, ABŞ-ın Ermənistan sərhədində rus əsgərini əvəzləməsindən sonra ortada İran adlı dövlət qalmayacaq".

**İsmayıl Qocayev**

# Rusiyada məktəbə hücum zamanı 15 nəfər ölüb

## Terrorçunun neofaşist baxışlarına və nasist ideologiyasına sadiqliyi barədə yoxlamalara başlanılıb



**Rusiyada dəhşətli hadisə baş verib. 88 saylı məktəbdə qara geyimli şəxs sinif otağına girərək iki tapançadan böyüklərə və uşaqlara atəş açıb. Bundan sonra o, dördüncü mərtəbədəki kabinetə girərək qapını bağlayıb və intihar edib. Təhlükəsizlik qüvvələri onun meyitini tapıblar. Atışma nəticəsində ölənlərin sayı 15-ə çatıb. Hadisə nəticəsində ümumilikdə 24 nəfər yaralanıb:**

"Ölənlərdən 11-i uşaqlardır. Bundan başqa 22 uşaq və iki yetkin yaralanıb". Rusiya Federasiyasının İstintaq Komitəsi xəbər yayıb ki, qurbanlardan yeddisi məktəblidir. Şagirdlərdən bəziləri yuxarı mərtəbələrdən tullanaraq güllələrdən xilas olublar. Yeddi yaşında olan altı uşağa hazırda təcili yardım göstərilir. Onlardan ikisinin vəziyyəti ağır, dördünün vəziyyəti isə orta-ağırdır. Bunların bəziləri güllə yaraları, digərləri isə pəncərədən tullanma nəticəsində yaranan sınıqlardır. İjevskdə 88 saylı məktəbdə baş verən facie ilə əlaqədar Udmurtiya Respublikasında sentyabrın 26-dan 29-dək matəm elan edilib. İstintaq Komitəsinin məlumatına görə, qatilin paltarında neonasist simvolları olub. O, həmin məktəbin keçmiş məzunu, 1988-ci il təvəllüdlü Artyom Kazantsevdir: "Onun neofaşist baxışlarına və nasist ideologiyasına sadiqliyi barədə yoxlamalara başlanılıb". Bundan başqa, qatilin arsenalının fotoları da paylaşılıb. Bu, "Makarov" tapançası və üzərində "nifrət" yazısı olan 20-yə yaxın daraqdır. Qeyd edək ki, bu, Rusiyada bu gün yaşanan ilk atışma hadisəsi deyil. Bundan əvvəl məlum olmuşdu ki, Ust-İlimskdə bir nəfər çağırış məntəqəsində hərbi komissara atəş açıb və onu ağır yaralayıb. Həmçinin Uryupinskdə 35 yaşlı şəxs hərbi komissarlığın qarşısına park etdiyi avtomobilini yandırıb. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov brifinq zamanı bəyan edib ki, İjevskdə 88 saylı məktəbə hücum terror aktıdır. Onun sözlərinə görə, hücumu, ehtimal ki, neofaşist təşkilat və ya qrupa mənsub olan şəxs həyata keçirib: "Prezident Vladimir Putin terror aktının baş verdiyi məktəbdə insanların və uşaqların həlak olması ilə bağlı dərin kədər hissi keçirir". Peskov bildirib ki, prezident insidentlə bağlı Udmurtiyanın rəhbəri Aleksandr Breçalov başda olmaqla bir sıra nümayəndələrlə telefonla müzakirələr aparıb.

**İsmayıl**



# Makron Ermənistana danışıqları bərpa etməyə çağırıb

## "Rəsmi Paris əmindir ki, dialoqun təxirə salınmadan davam etdirilməsi lazımdır"

**Fransa Ermənistan və Azərbaycan arasında gərginliyin azaldılmasına və danışıqların bərpasına çağırır.**

**Bunu Fransa Prezidenti Emmanuel Makron Parisdə Ermənistanın Baş naziri Nikol Paşinyanla danışıqlara başlamazdan əvvəl deyib.**

"Rəsmi Paris əmindir ki, dialoqun təxirə salınmadan davam etdirilməsi lazımdır", - o, bütün məsələlərin yalnız danışıqlar yolu ilə həll edilməsinə işarə edib. (report)

"Mən əmin-amanlığın və danışıqların bərpasına çağırıram", - Makron tviterdə Yelisey sarayından yayımlanan çıxışında deyib.

ABŞ Konqresi Nümayəndələr Palatasının sədri Nensi Pelosi İrəvanda olarkən Ermənistan hakimiyyətinə və cəmiyyətinə seçim etməsi ilə bağlı belə bir cümlə işlətmişdi: "Ermənistanın demokratiyası, suverenliyi və ərazi bütövlüyü bizim üçün çox önəmlidir. Biz öz əməli yardımımızı göstərmək üçün buradayıq, seçim Ermənistanındır. Biz öz istəyimizi ifadə etmək üçün buradayıq". Əslində Pelosi İrəvana "ya Amerika, ya Rusiya" seçimini təklif etmişdi. Ermənistan rəsmiləri Pelosinin səfərindən iki gün əvvəldən başlayaraq "Rusiya bizi qorumur", "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzərinə düşəni etmir" kimi açıqlamalar verirdilər. Bu siyasətin davamı kimi Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da ABŞ-a səfər edib. Qriqoryanın rəhbəri Nikol Paşinyan isə Fransaya səfərə gedib. Ekspertlərin fikrincə, ABŞ və Fransa Baş nazir Nikol Paşinyanı və onun hökumət üzvlərini Rusiya ilə qarşıdurmaya şərait yaradacaq təhlükəli oyuna sövq etməyə çalışırlar.

> Fransa və ABŞ-a səfərlər Rusiyanın İrəvana qarşı aqressiyasını artıracaq

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədri Samir Hümbətov "Şərq"ə deyib ki, Nensi Pelosinin Ermənistana səfəri və orada keçirdiyi görüşlərdən sonra Rusiyanın İrəvana qarşı aqressiyasının artacağı iddia edilirdi. Hətta erməni mediası da bunu gündəmə gətirirdi:** "Əslində Paşinyan hökuməti özü də bunun fərqindədir. Dərk edir ki, Moskva Pelosinin İrəvana səfərini və Ermənistan-Qərb münasibətlərini sakit qarşılamayacaq və cəzasız qoymayaq. Qriqoryan Rusiya təhlükəsindən dolayı hökuməti sığortalamaq üçün ABŞ-a səfər edir, daha doğrusu, Ağ Evə sığınır. Bu isə bölgədə vəziyyətin yenidən gərginləşməsi ehtimalını gücləndirir. Ən əsası isə Rusiya-Ermənistan qarşıdurmasının artması deməkdir. Qriqoryanın səfərində əsas məqsəd itirilmiş Rusiyanı ABŞ-la əvəzləmək, kompensasiya etməkdir. Yəni rusların müttəfiqliyini amerikalılarla dəyişmək istəyirlər".

**S.Hümbətova görə, digər məqsəd rus qoşunlarının Ermənistandan çıxarılmasıdır:** "Təbii ki, bu, hələlik real görünmür. Hər halda Paşinyan hökumətinin əsas strateji hədəflərindən biri budur. Bununla da ABŞ-ın Ermənistana yerləşməsi prosesini sürətləndirmək istəyirlər. Məhz indiki zamanda Rusiya Dövlət Duması sədrinin V.Volodinin Azərbaycana səfər etməsini təsadüfi saymıram. Bu səfər Qriqoryanın ABŞ-a səfərini müəyyən mənada tarazlayır və arxasında Ermənistanla bağlı müəyyən məqamlar dayanır".

**İsmayıl Qocayev**

# Mətbuat Şurasından gözləntilərin olması təbiidir

**Qulu Məhərrəmli:** "Mətbuat Şurası bir etik komissiya kimi mediaya, cəmiyyətə və müəyyən ictimai davranışlara təsir göstərə bilər. Həmçinin, yeni sədrin müəyyən konsepsiyası da ola bilər"



**Sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində Mətbuat Şurasının VIII qurultayı keçirilib. Qurultayda İdarə Heyətinə 28 jurnalist namizəddən 14-ü, 18 ictimaiyyət nümayəndəsi namizəddən isə 9-u seçilib. İdarə Heyətinin yeni tərkibi 23 nəfər həqiqi üzvdən ibarət olub. Azərbaycan jurnalistlərinin VIII qurultayında bir sıra qərarlar da qəbul edilib. Əvvəlcə Mətbuat Şurasının Nizamnaməsinə təklif olunan dəyişikliklər səsverməyə çıxarılıb.**

Daha sonra isə Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının adının yeni versiyada - Azərbaycan Jurnalistlərinin Etik Davranış Kodeksi adlandırılması barədə dəyişiklik qurultay iştirakçılarının müzakirəsinə təqdim olunub. Müzakirələrdən sonra hər iki dəyişiklik səsverməyə çıxarılaraq qəbul edilib. Habelə, dəyişikliklə kodeksə yeni 4-cü prinsip (Gender bərabərliyi və ayrıseçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi) əlavə edilib. Yekun səsvermənin nəticələrinə əsasən, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid Mətbuat Şurası İdarə Heyətinin sədri seçilib. Lakin bir gün sonra Mətbuat Şurasının İdarə Heyətinin tərkibində dəyişiklik olub. Qurumdan verilən məlumata görə, İdarə Heyətinə üzv seçilmiş Niyaz Niftiyev ərizə ilə sədr Rəşad Məcidə müraciət edib. O, işlərinin çox olması səbəbindən İdarə Heyətinin işində iştirak edə bilməyəcəyini deyib və üzvlükdən imtina edib. Mətbuat Şurası İdarə Heyəti Niyaz Niftiyevin müraciətini müzakirə edərək, qərar qəbul edib.

Jurnalistlərin VIII qurultayında namizədlər arasında olan və N.Niftiyevdən bir səs az toplamış Yeganə Hacıyeva isə İdarə Heyətinin üzvləri sırasına daxil edilib. **Qurultayın nəticələri və Mətbuat Şurasından gözləntilər barədə "Şərq"ə danışan tanınmış telejurnalist, Bakı Dövlət Universitetinin professoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Qulu Məhərrəmli deyib ki, Şuranın fəaliyyətindən, iş mexanizmindən və İdarə Heyətinə seçilən şəxslərdən gözləntilərin olması təbiidir. Lakin professorun qənaətincə, sədrin dəyişməsi nəzərə alınmazsa, adi qurultay keçirildi:** "Demək olar ki, qeyri-adi heç nə baş vermədi. Uzun illər ərzində, xüsusən Mətbuat Şurasının fəaliyyətdə olduğu təxminən ilk onillikdə Mətbuat Şurasından gözləntilər hədsiz dərəcədə çox olub. Gözləntilərin nə dərəcədə obyektiv, nə dərəcədə əsaslı olması məsələsində ciddi mübahisə görürəm. Mətbuat Şurası mahiyyət etibarı ilə nədir, nəyi ifadə edir? İlk növbədə buna baxmalıyıq. Mətbuat Şurası medianın, xüsusən yazılı mətbuatın özünütənzimləməsi və özündə bir çox jurnalist təşkilatlarını, media qurumlarını birləşdirən ictimai təşkilatdır. Onun əsas funksiyası da media ilə cəmiyyət arasında, cəmiyyətlə hakimiyyət arasında olan münasibətlərdə müəyyən rol oynamaqdır. Xüsusən, mətbuatdan olan şikayət və narazılıqların məhkəməyə qədər həllinə nail olmaqdır. Qurultayda bəzi rəqəmlər səsləndi və qeyd olundu ki, bir çox narazılıqlar məhkəməyə çatmamış Şikayət Komissiyasında həll olunub. Mətbuat Şurasının fəlsəfəsi ilə bu, çox normal haldır. Mətbuat Şurasının hakimiyyətlə, cəmiyyətin müxtəlif təbəqələri ilə işləməsinin özü də normaldır. Hakimiyyətlə işləmək heç bir halda hökumətin göstərişləri ilə işləmək anlamına gəlmir. Amma cəmiyyətdə Mətbuat Şurası haqqında belə bir rəy yaranıb ki, Şura müstəqil deyil və onlar müəyyən iradə altında fəaliyyət göstərirlər. Nə qədər şişirdilmiş olsa da, burada həqiqət də var. Bir çox məsələlərdə, müstəqil qərarların qəbul olunmasında Mətbuat Şurası prinsipial mövqedə dayanmayıb".

*Q.Məhərrəmli vurğulayıb ki, Mətbuat Şurasının sədri dəyişib və İdarə Heyətinə yeni adamlar gəlib:* "Mətbuat Şurası bir etik komissiya kimi mediaya, cəmiyyətə və müəyyən ictimai davranışlara təsir göstərə bilər. Həmçinin, yeni sədrin müəyyən konsepsiyası da ola bilər. Mətbuat Şurası çərçivəsində, onun fəlsəfəsinə uyğun addımlar atılar və s. Ancaq bütövlükdə hansısa inqilabi dəyişlik olacağını, MŞ-nin media və cəmiyyətə ciddi təsir göstərəcəyini düşünmürəm".

**İsmayıl Qocayev**




# Vəziyyət gərgindir

Jalə Təbrizi: "İranda camaat indiki rejimlə davam edə bilmir, ölkədə aclıq, yoxsulluq da baş alıb gedir"

**İranda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. "Geyim qaydalarına əməl etmədiyi"nə görə həbs olunan 22 yaşlı Məhsa Emininin ölümündən sonra etirazlar davam edir. Tehranın bir sıra meydan və küçələrində kütləvi aksiyalar keçirilir. Polis yürüşün qarşısını almağa çalışsa da, bacarmır.**

*"Ərk" Azərbaycan İnsan Hüquqları Cəmiyyətinin rəhbəri Jalə Təbrizi İrandakı mövcud durumu "Şərq"ə dəyərləndirib. O qeyd edib ki, etirazlar günü-gündən böyüyür. Nəticədə bu etriaz aksiyalarında işgəncə görən və dünyasını dəyişən şəxslərin də sayı çoxalır:* "İnsanlar islam ölkəsini dəyişməyə çalışırlar. Camaat artıq indiki rejimin qalmasını istəmir. Gənclər, qadınlar, hər təbəqədən olan insanlar bu rejimdən beziblər. Xomeyni hakimiyyətinin dəyişməsi məsələsi isə olduqca çətindir. Avropa, eləcə də Amerika bunun tərəfdarı deyil. Buna görə də İrandakı hadisələrə o qədər də qarışmırlar. Onların xeyrinə olduğu üçün İslam dövlətinin aradan qalxmasını istəmirlər. Buna baxmayaraq yenə də ümid edirəm ki, indiki situasiyadan yaxşı bir çıxış yolu tapılacaq.

Çünki artıq camaat bu rejimlə davam edə bilmir. İndi İranda aclıq, yoxsulluq da baş alıb gedir. Bu etirazlar yeni deyil. Artıq iki ildir ki, müəllimlər, təqaüdçülər, işçilər maaşlarını ala bilmədikləri üçün Xiyabandadırlar. İndi isə həmin adamlar əxlaq polisi tərəfindən öldürülən 22 yaşlı Məhsa üçün qadınlarla birgə küçələrə axışıb mübarizəni davam etdirirlər. Hər cəhətdən vəziyyət gərgindir.

İnsanlar istədiklərini almadıqca yenə də bu etirazları davam etdirəcəklər. Onların nə istədikləri isə düşünürəm ki, artıq hər kəsə bəllidir".

**Günəş**

# 27 sentyabr yeni mərhələnin başlanğıcıdır

Vətən müharibəsi xalqımızın qalibiyyət ruhunu oyatdı

**Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd edilir. Bu günün tarixinə qısaca nəzər salaq.**



"Bu qələbə bütün xalqın əzmkarlıq nümunəsinə çevrilib və əsrlər boyu yaddaşlara həkk olunacaq"

Ermənistanın ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub, yüz nəfərdən artıq hərbi qulluqçumuz itkin düşüb, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirib. İşğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olunub.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu Anım Günü ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, tariximizi əks etdirən günləri daim yadda saxlamalıyıq:** "Bu bizim milli-mənəvi dəyərlərimizin xilasıdır. 27 sentyabr tarixi yeni mərhələnin başlanğıcıdır. Mən bunu Azərbaycan tarixində baş verən çox ciddi tarixi hadisə kimi dəyərləndirirəm.

Çünki məhz bundan sonra biz otuz illik işğal altında qalan torpaqlarımızı azad etdik. İşğal edilmiş ərazilərimizdə üçrəngli bayrağımızı dalğalandırdıq. Bu, bir xalq üçün olduqca önəmli və əhəmiyyətlidir.

27 sentyabr tariximizdə hər zaman yaşayacaq. Vətən müharibəsi xalqımızın qalibiyyət ruhunu oyatdı. 44 günlük müharibə nəticəsində əldə edilən şanlı qələbə bizə qələbə irsimizi xatırlatdı.

27 sentyabr başlanğıcı ilə Azərbaycan işğalçı düşmənə qarşı birlik göstərərək 30 illik həsrətə son qoydu. Bu qələbə bütün xalqın əzmkarlıq nümunəsinə çevrilib və əsrlər boyu yaddaşlara həkk olunacaq. Bu hadisədə böyük fədakarlıq göstərmiş qəhrəmanlarımızı isə hər zaman yad edəcəyik".

**Günəş Mərd**

# "Təklifləri toplayırıq..."

Aqil Ələsgər: "Jurnalistlərimizin problemləri ilə bağlı məsələləri ön planda tutmağa çalışmalıyıq"

**Sentyabrın 24-də Azərbaycan jurnalistlərinin VIII qurultayı keçirilib. Toplantıda Mətbuat Şurasının İdarə Heyətinin yeni tərkibi formalaşdırılıb və "525-ci qəzet"in baş redaktoru, şair, publisist Rəşad Məcid Mətbuat Şurasının sədri seçilib. Səsvermə yolu ilə formalaşdırılan İdarə Heyətinin tərkibinə isə 23 nəfər daxil edilib.**



*Formalaşdırılan yeni İdarə Heyətinin üzvlərindən biri, "Yeni Çağ" media qrupunun baş direktoru Aqil Ələsgər jurnalistlərin səkkinci qurultayı ilə bağlı fikirlərini "Şərq"lə bölüşüb.* O, diqqətə çatdırıb ki, bizdə bir çox insanlar fəaliyyətə başlayan yeni kadrların mütləq şəkildə özündən öncəkinin bütün əməllərinin üstündən xətt çəkməli olduğunu düşünür. Bu, olduqca yanlış düşüncədir: "Mətbuat Şurasının iyirmi illik bir təcrübəsi var. MŞ bu iyirmi il ərzində ciddi dəyişikliklər edib. Bu gün zamanın tələbi ilə müasir dövrümüz bizim qarşımıza hansı tələbləri qoyursa, biz onların yönündə fəaliyyət göstərməliyik. Bizdən öncə yaxşı proseslər olubsa da, onları davam etdirməliyik.

Azərbaycan mətbuatının problemləri, gələcək perspektivləri ilə bağlı məsələləri müzakirə edib, aktual olanları gündəmə gətirib onları dövlət qurumları qarşısında qaldırmalıyıq. Eyni zamanda dövlətin bu sahədə fəaliyyət göstərən Medianın İnkişafı Agentliyi ilə daha geniş əlaqələr qurub, fəaliyyətimizi onlarla koordinasiya edərək Azərbaycan mətbuatının inkişafı üçün çalışmalıyıq. Mətbuatımızın problemləri çoxdur. Bunlardan ən vaciblərini seçib əvvəlcə onların üzərində işləməliyik. Biz fəaliyyətimizdə jurnalistlərimizin problemləri ilə bağlı məsələləri ön planda tutmağa çalışmalıyıq.

İndi jurnalistikadakı nöqsanların aradan qaldırılması, jurnalistlərin peşə qabiliyyətlərinin artırılması istiqamətində təklifləri toplayırıq. Hələ idarə heyətində vəzifə bölgüsü aparılmayıb. Bunları müzakirə edəcəyik və inanıram ki, bu dörd ili boşuna keçirməyəcəyik".

**Günəş Mərd**

# Media reyestrinin faydası çoxdu

İndi konkret şəkildə jurnalistikanın sərhədləri tanınacaq

**"Media reyestrinin ikinci böyük faydası evsiz jurnalistlərin mənzillə təmin olunmasıdır".**

Bunu "Şərq"ə açıqlamasında "Demokrat.az" saytının baş redaktoru Vasif Həsənli Media reyestrinin aparılması qaydalarının təsdiqlənməsindən danışarkən deyib.

O bildirib ki, bu reyestrlə əsl jurnalistlərin kimliyi bəlli olacaq: "Bu vaxta qədər hər yerindən duran "mən jurnalistəm" deyirdi. İndi isə konkret şəkildə jurnalistikanın sərhədləri tanınacaq. Reyestrin formalaşması çox vacib idi. Buradakı hər şey könüllü şəkildə həyata keçiriləcək. Kim dövlətin təşkil etdiyi imtiyazlardan yararlanmaq istəsə, o da müraciət edəcək.

Kim də istəməsə, özü bilər. Orada həmçinin ipoteka kreditlərinin verilməsi və jurnalistlərə güzəştlər nəzərdə tutulub. Bunun da kirayədə qalan və mənzilləri olmayan həmkarlarımıza böyük faydası olacaq".

**Nihat**

# Xaricdən ölkəmizə gələnlər çoxdur

Meymunçiçəyi Azərbaycanda da yayıla bilər



**"Hər bir infeksion xəstəliyə Azərbaycanda rast gəlmək olar. Əgər xəstəlik yoluxma ilə yayılırsa, istənilən halda ölkəmizdə də peyda olması mümkündür. Çünki biz qloballaşan dünyanın bir hissəsiyik".**

Bu fikirləri "Şərq"ə açıqlamasında meymunçiçəyi xəstəliyinin Azərbaycanda yayılma ehtimalından danışarkən tibb elmləri doktoru, professor Adil Qeybulla deyib.

Professor bildirib ki, meymunçiçəyi koronavirus pandemiyası ilə müqayisə edilə bilməz: "Ölkəmizə xaricdən gələnlər var. Onların arasında xəstəliyini gizli keçirən insanlar gəlsələr, meymunçiçəyi virusu ölkəmizə də yayılar. İndiki dövrdə meymunçiçəyimə yoluxma sayı dünya əhalisinə nisbətdə cüzi rəqəmlərdir.

Tənəffüs yolu ilə yayılan infeksiyaların intensivliyinə çata bilməz. Dünya meymunçiçəyinin lokallaşdırılması üçün lazımi tədbirlər görür. Qarşısını da ala biləcək".

*Qeyd edək ki, dünyada meymunçiçəyinə yoluxanların sayı 62 mini ötüb.*

**Aygün**

# Rusiya son kartını oynadı

Səfərbərlik son çarədir, amma çıxış yolu deyil



"Bundan sonra baş verənlər Putinin "bıçaq üstündə gəzməsinə" bənzəyəcək"

**Rusiyada Prezident Vladimir Putinin ölkədə qismən səfərbərlik elan etməsindən sonra ölkədə vəziyyət qarışıb. Sentyabrın 21-dən başlayan səfərbərlik əhalinin etirazlarına səbəb olub. Bunun ardınca Putin Rusiya Federasiyasının Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanunu imzalayıb.**

Dəyişikliyə əsasən, fərarilər və çağırışa baxmayaraq hərbi xidmətə getməyən əsgərlər 10 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaqlar. Məlumata görə, "qismən" səfərbərlik elan etdikdən sonra 261 min kişi ölkəni tərk edib. Xüsusən, Gürcüstana üz tutan insanların sayı durmadan artıb. Səfərbərlikdən qaçan ruslar Gürcüstan sərhədini keçmək üçün təxminən 40 saata qədər gözləməli olublar. Nəticədə sərhəddə ümumi uzunluğu 20 kilometrdən çox olan tıxac yaranıb. Tıxacın artmasına səbəb Rusiya tərəfindən hərbi çağırış yaşlı insanların sərhədi keçmələrinə tətbiq olunan qadağalardır. Hərbi çağırışdan yayınmaya görə vətəndaşların 10 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılması ilə bağlı sərəncam vəziyyəti daha da gərginləşdirib. Bəzi insanlar qadağalara məhəl qoymadan qeyri-qanuni yolla Gürcüstana keçməyə cəhd göstərirlər. Bu isə Gürcüstan tərəfində ciddi narahatlıq yaradır. Rusiya hökumətinə yaxın olan media qurumlarının bildirdiyinə görə, ilk olaraq xüsusi hərbi vəzifə təcrübəsi olanlar - atıcılar, tankçılar, artilleriyaçılar, sürücülər və sürücü-mexaniklər çağrılır. İkinci mərhələdə yaşı 35-dən aşağı olan əsgər və çavuşlar, 50 yaşa kimi orta rütbəli, 70 yaşa qədər isə yüksək rütbəli zabitlər səfərbərliyə alınır. Bundan əlavə, hərbi qeydiyyatda olan qadınlar, xüsusilə həkim qadınlar səfərbərliyə cəlb edilib. Lakin onların sayı hələlik çox azdır, yerli medialarda qeyd olunub. Dağıstanda yerli hökumət idarələrinin birində işləyən vətəndaş bildirib ki, onların olduğu ərazidə yaşından və hərbi xidmət vəzifəsindən asılı olmayaraq 50 yaşa kimi hər kəsi yığıb aparıblar: "Yararlı, yararsız, hətta kantuziyası olan adamları belə səfərbərliyə alıb, aparıblar, vəziyyət çətindir, burada hər kəs narahatdır".

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, hazırda Rusiyada sərhədlərin bağlanması ilə bağlı qərar yoxdur. Peskov ölkənin hansısa regionunda hərbi vəziyyətin tətbiqi ilə bağlı heç bir qərarın hələ qəbul edilmədiyini söyləyib.

*BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov bildirib ki, Rusiya Ukrayna müharibəsində düşdüyü çıxılmaz duruma görə qismən səfərbərlik etmək məcburiyyətində qaldı. Analitikə görə, bunun son çarə olduğu aydındır:* "Putin, necə deyərlər, son kartını oynamağa başladı. Bundan sonra baş verənlər Putinin "bıçaq üstündə gəzməsinə" bənzəyəcək. Səfərbərliyin asan keçəcəyini gözləmək olmazdı. Etirazlar Putin üçün təhlükə olacaq. Azərbaycan üçün Rusiyada baş verən bu proseslərin birbaşa təsiri gözlənilmir. Ancaq bu prosesin özü təhlükəli tendensiyadır. Rusiyanın yığmağı planlaşdırdığı əsgər sayı ətraf respublikalar üçün təhlükə ola bilər. Bununla yanaşı, Rusiyadan səfərbərlikdən yayınan insanların Azərbaycana gəlməsi də gərginlik mənbəyidir. Xüsusilə, orada yaşayan Rusiya vətəndaşı olan azərbaycanlıların ölkəyə qayıtmaq istəməsi problem yaradan amildir. Ukrayna-Rusiya müharibəsinin uzanması təkcə Azərbaycan yox, bütün dünya üçün təhlükə mənbəyidir. Putin nüvə silahı tətbiqindən danışır. Ona görə bu müharibənin tez sona çatması hamının təmənnasıdır".

Analitikin sözlərinə görə, müharibənin tezliklə başa çatması gözlənilmir. Çünki tərəflərin mövqeyi buna yol vermir: "Ukrayna son torpaqları Krım daxil azad edilməyincə razılığın olmasının mümkün olmadığını bəyan edir. Rusiya isə işğal etdiyi ərazilərdə referendum keçirməyə başlayır. Belə çıxır ki, müharibə hələ davam edəcək. Soyuq ayların başlamasını da nəzərə alsaq, ən azı gələn ilin ortalarına kimi müharibə uzanacaq. Əgər Rusiya məğlub duruma düşərsə, bu müharibəni ancaq Rusiyada hakimiyyət dəyişikliyi bitirə bilər".

**İsmayıl Qocayev**



## Heç bir ölkə Ukraynada referendumu tanımayacaq

### "Bu Rusiyanın deyil, Putinin yaratdığı münaqişədir"

**"Rusiya Ukraynada işğalçı müharibə aparır. Artıq bütünlükdə rus cəmiyyəti də bunu yaxşı anlamağa başlayıb".**

*Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Rusif Məmmədsoy deyib.*

*Onun sözlərinə görə, bu, Rusiyanın deyil, Vladimir Putinin yaratdığı münaqişədir:* "Bu gün Serbiyadan gələn səslər, bir sıra açıqlamalar təəccüb doğurmamalıdır. Ümumiyyətlə, hansı dövlət Kremlin qeyri-qanuni "referendumunun" nəticəsini tanımaq istəyər ki?! Bundan başqa, Serbiya ilə Rusiyanın münasibətləri hər zaman digərlərindən fərqli olub. Çox yaxınlıq müşahidə edilib. Amma Serbiyanın özünün də bu separatizmlə bağlı problemləri var. Həmçinin Kosova amili mövcuddur. Eyni zamanda Serbiya sadəcə Rusiya ilə deyil, Avropa ilə də münasibətlərdə irəliləyiş əldə etmək üçün bu kimi məsələlərdə bir qədər diqqətli davranır. Ona görə də rəsmi Belqradın bəyanatına təəccüblənmək lazım deyil. Təkcə Serbiya deyil, Qazaxıstan, Qırğızıstan, Özbəkistan kimi dövlətlər də rəsmi Moskvanın bu addımını dəstəkləmirlər. Türkiyədən də "referendum"u tanımayacaqlarına dair çox ciddi açıqlama gəldi. Nüvə təhdidi olsa belə, Ukrayna həmin ərazilərdə əks-hücum həmlələrini davam etdirəcək. Müharibə hələ də gedir".

*Qeyd edək ki, Serbiya Rusiyanın Ukraynanın işğal olunmuş ərazilərində keçirdiyi "referendumlar"ı tanımayacaq. Bu barədə ölkənin Xarici işlər naziri Nikola Selakoviç bildirib.*

**Sücayət Mehti**

# Baş nazir ikinci cəbhə açır

### Paşinyan Ermənistanı birdəfəlik Qərbə inteqrasiya etmək niyyətindədir

**"Nikol Paşinyanın BMT-dəki çıxışı və Blinkenlə görüşləri onu deməyə əsas verir ki, o, yeni müharibənin başladılmasını və ardınca Rusiyanın Ermənistandan çıxarılmasını hədəfləyir". Bu barədə politoloq Zaur Məmmədov deyib.**



*Ekspert bildirib ki, Paşinyan öz çıxışı ilə bütövlüklə Azərbaycanı dünya qarşısında "aqressor" kimi qələmə verib:* "Çıxışı zamanı Paşinyan Azərbaycanı Ermənistan ərazisini işğal etməkdə günahlandıraraq Bakının sülhü hədəfləmədiyini qeyd edib. ABŞ və Qərbin xoşuna gəlmək üçün son hadisələri Azərbaycanın Ermənistandakı demokratik suveren dövlət quruculuğunu boğmaq kimi dəyərləndirib. Eyni zamanda, bu fonda Rusiyanı fəaliyyətsizlikdə ittiham edib. Bu azmış kimi, Nikol sərhəddə monitorinqin aparılması üçün beynəlxalq müşahidəçilərin cəlb edilməsinin vacibliyinə toxunub. Paşinyan üçtərəfli bəyanatda Zəngəzura məhz dəhliz statusunun verilməsi ilə bağlı ifadənin olmamasını da bəyan edib".

**Analitik qeyd edib ki, Paşinyanın Nyu-Yorkdakı çıxışı müharibə riskini artıran ifadələrlə yadda qaldı:** "Ermənistan demarkasiya və dəhliz məsələsində nəticəyə hazır olmadığını sübut etmiş oldu. Halbuki, müxtəlif mənbələrin məlumatına görə, 9 noyabr tarixində yazılı şəkildə üçtərəfli bəyanat kimi öhdəlikdən başqa Paşinyanın Putinə verdiyi "kişi sözü" də var. Həmin şifahi razılaşmaya görə daxili auditoriyanı çaşdırmaq üçün Bəyanatda "maneəsiz" ifadəsi yer almışdı və anklavlar məsələsi ikinci versiyada sənəddən çıxarılmışdı. Paşinyan anklavlar da daxil olmaqla tez bir zamanda demarkasiyaya gedəcəyini və koridor statusunda Zəngəzur xəttini açacağına söz vermişdi".

**Z.Məmmədov vurğulayıb ki, Ermənistan öz ərazisində Rusiya faktorunu minimallaşdırmaq və ABŞ-ın Qafqazdakı əsas dayaq nöqtəsi olmasını hədəfləyir:** "Paşinyan verdiyi vədlərə əməl edilməməsinin həm Azərbaycan, həm də Rusiya tərəfindən cəzalandırılması riskini də çox yaxşı bilir. Beləcə, Ermənistan Azərbaycanın Naxçıvana və Göyçə gölünə qədər hərbi əməliyyatlar keçirməsinə zəmin və şərait yaradır. Xatırladım ki, 1920 -ci ildə "Ararat respublikası" SSRİ-nin tərkibinə daxil olarkən Qərbi Zəngəzur və Göyçə bölgələri Azərbaycan ərazisi idi və sərhəd xətti qərbdə idi. Hər halda son hadisələr ABŞ, Aİ, İran, Türkiyə, Rusiya arasında Qafqaz uğrunda mübarizəni qızışdırır və regionu qeyri-sabit nöqtəyə çevirir. Paşinyanın yürütdüyü siyasət qanların axıdılmasına yönəlib. O, ikinci cəbhə açaraq Ermənistanı birdəfəlik Qərbə inteqrasiya etmək niyyətindədir".

**İsmayıl**

# Tehran fərqindədir

### İrana dair qorxulu planlarda aparıcı xətt Britaniyaya məxsusdur

**"İrandakı iğtişaşların, mitinqlərin miqyası geniş vüsət aldıqca Tehran proseslərdə xarici dirijor axtarışlarına çıxır. Tehran İsrailin bostanına daş atmayıb, ümumiyyətlə, İran son aksiyalara nisbətdə İsrail amilini çox da qabartmağa çalışmır.**



Çünki İran İslam Respublikası düşməni İsrailin həddindən artıq güclü olduğunu qəbul etmiş kimi görünər və o zaman daxildə qızışmış emosiyalar "İsrail mərkəzli" sindrom kimi inkişaf edər. İran hələlik ilk "oxları" Böyük Britaniya və Norveçə atıb. Hər iki ölkənin Tehrandakı səfirləri Xarici İşlər Nazirliyinə çağırılıb, məzəmmət edilib".

**Bu fikirləri "Şərq"ə açıqlamasında İranda baş verən ixtişaşlar barədə danışan analitik Aqşin Kərimov deyib. Siyasi sərhçi söyləyib ki, etiraz notalarının motivi iki ölkəyə münasibətdə vahid yanaşmanı bildirir: "Yəni Britaniya da, Norveç də İrandakı aksiyaları alovlandıran addımlar atırlar:** Britaniya media vasitəsilə, Norveç isə parlament səviyyəsində. Norveç dünya üzrə ambisiyalı dövlət deyil, o, Qərb sisteminin bir parçası kimi İrana qarşı tövr sərgiləyir. Əsas vurğu Britaniya üzərinə qoyulmalıdır.

Məntiqi cəhətdən Britaniyanın İrandakı hadisələri yönləndirmək cəhdləri mənalı görünür. Çünki Londonun qlobal çərçivələrinin hüdudsuzluğu onu İran barəsində də gizli, lakin qətiyyətli fəaliyyətə kökləyir.

Britaniya əlindəki qeyri-rəsmi vasitələrdən İrana qarşı yararlana bilər və heç təəccüblü də deyil. Həmin alətlərdən biri də Britaniyadakı iranlı icmasıdır və Birləşmiş Krallıq onlara bir növ himayəçilik edir".

**Ekspertin qənaətincə, Britaniyanın "Qlobal Britaniya" strategiyasının "qara siyahısında" İran da var:** "London, Tehranın regional və beynəlxalq siyasətini təhlükəsizlik mühitini pisləşdirən və beynəlxalq nizamı zəiflədən postulat kimi dəyərləndirilir. ABŞ-la yanaşı Britaniya da İranda baş verənləri böyük şövq və həyəcanla izləyir. Nəticələri öz xeyrinə dəyişdirmək üçün həm təkbaşına, həm də koordinasiyalı iş aparır. Britaniya narahatlıqlarını və prioritetlərini ABŞ-la bölüşür. Hərçənd Vaşinqton Tehranla münasibətlərindəki nüvə anlaşılmazlığını, sanksiyaları aradan qaldırmaq niyyətindədir. ABŞ İrana yumşalma siyasəti yürüdür. Bu, Britaniyanın bəzi prioritetlərinin qarşısını kəsir. Britaniya İsraillə əməkdaşlıq xəttini inkişaf etdirir və iki ölkə arasındakı təhlükəsizlik tərəfdaşlığı yenilənir. Şübhəsiz ki, indi İrana dair qorxulu planlarda aparıcı xətt Britaniya və İsrailə məxsusdur. Tehran britaniyalı səfir Simon Şerkliffi XİN-ə çağıraraq qabaqdangəlmişlik edir, "bizim bu planlardan xəbərimiz var" işarəsini verir. İrandakı hadisələr Britaniyanın regiondakı iştirakçılıq dozasını formalaşan yeni düzənə mütənasib qaydada çoxaldacaq. Yeni salınan marşrutda Britaniya İrana qarşı hab yaratmaq üçün region dövlətlərinin narahatlıq və prioritetlərini öz quruluşuna inteqrasiya edəcək".

**Aygün Tahir**



# Dünya bazarında neftin qiyməti aşağı düşüb

### Məntiqlə bu vəziyyət Aİ-95 və Aİ-98-in qiymətlərində də özünü göstərməlidir

**"Neft qiymətləri ucuzlaşır, "Brent" markalı neftin ən ucuz partiyası 83.45 dollara satılıb". Bu sözləri Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban deyib. Ekspert bildirib ki, KİV-lərin ona ünvanladığı suallar əsasən Aİ-95 markalı benzinin qiymətinin ucuzlaşma perspektivləri ilə bağlıdır: "13 iyul tarixdə Ai-95 marlakı benzinin 1 litrinin qiyməti bazar iştirakçılarının kartel sövdələşməsi ilə bütün Azərbaycanda 2 manat təyin edildi.**

Həm hökumət, həm də istehlakçılar seyrçi mövqe tutdular. Bunun bazarda inhisar halı olmasını heç araşdırmadı. İstehlakçılar da etiraz etmədilər:

- "Yəni olan budur, alırsan al, almırsan maşınına milli istehsal olan Aİ-92 vur". Əslində xeyli istehlakçı elə sonuncu yolu tutub, çünki Aİ-95-in satışları ötən illə, əsasən də 2020-ci illə müqayisədə xeyli azalıb. O zaman KİV-lər yazırdı ki, bəs dünya bazarında neftin qiyməti 100-ü aşıb, ona görə də idxal benzininin qiymətindəki artım da obyektivdir. İndi də media diqqəti ona çəkir ki, dünya bazarında neftin qiyməti 85 dollardan aşağı düşüb, bu, özünü Aİ-95 və Aİ-98-in qiymətlərində göstərəcəkmi? Məntiqlə göstərməlidir. Çünki hələ sentyabrın 7-də "Brent" markalı neftin qiyməti ilk dəfə olaraq 86 dollardan aşağı qiymətə ticarət edilməyə başlamışdı. Düzdür, sonrakı günlərdə 93-94-ə qədər yüksəlsə də, sentyabrın 22-dən 90 dollardan aşağı qiymət diapozonunda ticarət edilir. Azərbaycanda yanacaq bazarında real rəqabət mühiti olsaydı, təbii ki, hər Yanacaq Doldurma Məntəqəsində alıcılar müxtəlif qiymətlər görə bilərdilər və bu, daim üzü yuxarı gedən qiymətlər olmayacaqdı. İllərdir təkrar edirəm, niyə sayı 900-ü adlamış YDM-lərdən birinin ağlına gəlməyib ki, dövlət tərəfindən tənzimlənməyən kateqoriya yanacağı öz qonşusundan 1 qəpik ucuzuna satsın? Yaxud baha!".

**İ.Şaban vurğulayıb ki, rəqabəti taksi xidmətlərində görürük:** "Bəs yanacaqda niyə olmasın? Rəqabət bir yana, heç hökumət açıqlamır ki, bazarda 1 manata satılan benzindən gələn gəlir necə bölüşdürülür. İstehsalçıya nə qədər çatır, daşıyana və satana və hər litr yanacaqdan dövlətin büdcəsinə nə gəlir? Axı dövlət tərəfindən tənzimlənən bazarda belə şeylər kommersiya sirri ola bilməz. Xaricdə dövlətin tənzimləmədiyi bazarda belə bu məlumatlar açıqdır, özü də qonşularımız Türkiyə və Rusiyada. Daha bir maraqlı məqam odur ki, Azərbaycana 2022-ci ilin I yarısında idxal zamanı 1 ton Aİ-95 markalı benzinin qiyməti 978,17 dollardan rəsmiləşdirilib. Amma Aİ-92 markalı benzinin 1 tonu daha baha idxal edilib - 1149,84 dollardan. Siz təəccüblənməyin. Bu ilin ilk yarısında bilirsiniz nə qədər aşağı oktanlı benzin idxal edilib? Rəsmi statistikaya görə, 150,8 min ton və bunun üçün 173,4 milyon dollar vəsait xərclənib. Elə bilməyin ki, Aİ-92 markalı benzinin idxalı təmirlərlə əlaqəlidir. Bəli, əlaqəsi var, amma tam yox. Çünki cari ilin ilk rübündə, təmirdən əvvəl Azərbaycan 50 min tondan çox Aİ-92 markalı benzin idxal etmişdi, ikinci rübdə isə bu həcmlər 100 min tona çatıb. Elə iyulda da idxal olub. Bilirsiniz nə qədər? Gündə 1,5 milyon litr. Əgər Aİ-92 markalı benzini ölkəyə gətirmək belə baha başa gəlirsə, onda nədən Aİ-95-in qiymətini aşağı salıb onun satış həcmlərini artırmağı düşünmürük? Suallar çoxdur".

**İsmayıl**

# İrəvan PKK terrorçularını Ankaraya təhvil verməlidir

### Çünki Ermənistan indi Türkiyənin münbit kəşfiyyat nəzarəti altındadır



**Ermənistanın iki PKK terrorçusunu (Atilla Çiçək və Hüseyn Yıldırım) Türkiyəyə verməsi ilə bağlı məlumatlar erməni ictimai-siyasi dairələrini və mediasını çalxalayıb. Ermənistan Milli Təhlükəsizlik Xidməti və Ədliyyə Nazirliyinin təkzibləri isə elə həmin iddianı dolayısı ilə doğrulayıb.**

Hər iki qurum terrorçuların ekstradisiyası faktını inkar etsə də, həmin PKK üzvlərinin Türkiyədə əliqandallı görünməsinin izahını vermir. Ermənistan PKK döyüşçüləri üçün sığınacaq yeridir. Türkiyəyə qarşı fəaliyyət göstərən terrorçuların məskən saldığı oylaqlardan biri də Ermənistandır. Türkiyənin gözündə bu, regional təhlükəsizlik arxitekturasına hədədir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Cənubi Qafqazda yaranan yeni reallıqlar, Ermənistanın Türkiyə ilə yaxınlaşmaq arzuları fonunda həmin terrorçuları İrəvanın təhvil verdiyi həqiqətə bənzəyir. Analitikə görə, Türkiyə reallıqların açdığı fürsətlər pəncərəsini peşəkarlıqla aralayır:** "Onun Suriyada, İraqda PKK-ya qarşı keçirdiyi əməliyyatları digər regionlardakı əməliyyatlar da müşayiət edir. Ankara PKK-çıların səfər marşrutunu diqqətlə izləyir. Milli Kəşfiyyat Təşkilatının (MİT) inadkar səyləri ilə terrorçuların "qaymaq"ları zərərsizləşdirilir. Türkiyə Cənubi Qafqaz regionunda "ehtiyatda dayanan" və ya gizlənən terrorçuları da ram etməkdə prinsipialdır. Yəqin ki, Ermənistan üzərində yaradılan təzyiqlər dalğasını özü üçün əlverişli şərait kimi nəzərdən keçirir. İkincisi, ehtimal edək ki, Ermənistan PKK-çıları təhvil verməyib. Lakin bunun özü də MİT-in əməliyyat keçirməsinə maneə yaradan amil deyil. Çünki MİT ən mürəkkəb şəraitlərdə və çətin relyeflərdə belə əməliyyatlar keçirmək qabiliyyətinə malikdir. Bu potensialını hər keçən gün yüksək səviyyədə inkişaf etdirir. Yəni Ermənistan hakimiyyəti Türkiyə ilə sövdələşməyə getməsə belə Ankara ondan istədiyini qoparmaq gücündədir".

**A.Kərimov vurğulayıb ki, Türkiyə antiterror siyasətinin miqyasını praktiki şəkildə Cənubi Qafqaza da nüfuz etdirir:** "Gələcəkdə Ermənistanın PKK-ya himayədar durmaq siyasəti də iflasa uğrayacaq. Çünki Ermənistan indi Türkiyənin münbit kəşfiyyat nəzarəti altındadır. Türkiyənin İsraillə yaxınlaşması da onun gizli əməliyyatlarına yardımçı funksiya yükləyir və Ankara bu əməkdaşlığı davam etdirəcək. Ermənistanın iki PKK-çını Türkiyəyə təhvil verməsi xəbəri, ən azından PKK liderləri və onları himayə edənlər üçün bir testdir. Artıq onların da Ermənistana etibarı qalmır və İrəvan daha bir nəfəsliyini itirir".

**İsmayıl Qocayev**

# Səbuhi Məmmədlinin səhhəti qəfil pisləşib

### "Yüksək şəkər gözlərimin fəaliyyətinin zəifləməsinə də səbəb olub"

**Tanınmış jurnalist Səbuhi Məmmədlinin səhhətində ciddi problem yaranıb. Bu barədə "Şərq"ə danışan həmkarımız bir neçə gündür xəstəxanada olduğunu və intensiv müalicə aldığını deyib. Qeyd edək ki, S.Məmmədlinin səhhətində yaranan problemlərdən xəbərsiz idik. Bu barədə təsadüfən, həmkarımızın özünün yazdığı post sayəsində xəbərdar olduq.**

Qeyd edək ki, o, sosial hesabında Mətbuat Şurasının 8-ci qurultayında sədr seçilən həmkarı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidi təbrik edib. Yazıda diqqətçəkən məqam isə S.Məmmədlinin qurultay nümayəndəsi olmasına rəğmən səsvermədə iştirak etməməsidir. Təbrik mesajında həm də buna aydınlıq gətirən jurnalist həmin gün canı ilə əlləşdiyini deyib: "Elə indi də xəstəxanadayam. İntensiv müalicə alıram".

**Həmkarımızın səhhəti ilə bağlı məlumat almaq və hal-əhvalını öyrənmək üçün özü ilə əlaqə saxladıq:** "Yüksək şəkərim var. Həmçinin illərdir hipertoniya və



*"Ayağımdakı qızartılar və şiş çəkilib. Artıq damarların açılması proseduruna başlayacaqlar"*

ürək çatışmazlığından əziyyət çəkirəm. Yəqin ki, xatırlayırsınız, bir neçə il əvvəl ürəyimə stend də qoyulub. Ayağımla bağlı da çox ciddi problemlərim var. Zəngilanın Ağalı kəndindəki "İlk zəng"lə bağlı reportaj hazırlayan zaman ayağım daşa dəydi və yaralandı. Adi üsulla müalicə etdim, amma yaralanan yer qızarıb şişməyə başladı. Xroniki xəstəliklərim, xüsusən də şəkərim olduğu üçün bu yaralanma orqanizmimə çox pis təsir etdi. Səhhətim qəfildən pisləşdi və xəstəxanaya müraciət etməli oldum. M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində müalicə alıram. Həkimlərin peşəkarlığı və səyi nəticəsində artıq ayağımdakı qızartılar və şiş çəkilib. Və artıq damarların açılması proseduruna başlayacaqlar. Hələ ki, müalicəm davam edir. İnşallah, yaxın günlərdə tam sağalıb, işimin başına qayıdacam.

Müalicə və müayinəmin yüksək səviyyədə, tam ödənişsiz təşkilinə görə, TƏBİB əməkdaşlarına xüsusi təşəkkür edirəm. Hər şey yaxşıdır və heç nəyə ehtiyacım yoxdur.

Xəstəxananın direktoru, baş həkim Rauf Ağayevə və xəstəxananın personal kollektivinə təşəkkür edirəm. Hər biri ayrı-ayrılıqda yüksək xidmət və qulluq göstərir. Bir jurnalist olaraq bütün həmkarlarıma, oxucularıma və bütünlükdə Azərbaycan vətəndaşlarına tövsiyə edirəm ki, müalicə üçün İrana, Turana getməyə ehtiyac yoxdur. Azərbaycanda kifayət qədər savadlı və işinin peşəkarı həkimlər var. Xəstəxanalarımız yüksək və müasir standartlara uyğun tibbi ləvazimatlarla təmin olunub".

Söhbət əsnasında məlum oldu ki, S.Məmmədlinin görməsində də ciddi problemləri var. Yüksək şəkər digər orqanları kimi gözlərinin də fəaliyyətinin zəifləməsinə səbəb olub.

**P.S.** *"Şərq" qəzetinin kollektivi olaraq Səbuhi Məmmədliyə Allahdan şəfa diləyirik!*

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Zəfər yürüşü...

## Xalqımız ən çətin, ağır günlərdə birləşərək həmrəy olmağı bacardı

**Bu gün Azərbaycanımızın başını uca tutduğu gündür. Matəm günü deyil, Şərəfli Anım günüdür. 2020-ci il sentyabrın 27-si Azərbaycan Ordusunun 30 ilə yaxın işğal altında saxlanan doğma torpaqlara zəfər yürüşü başladı. Şanlı ordumuz Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdi və Böyük Qələbə ilə nəticələnən Vətən müharibəsinin şərəfli tarixini yazdı. Vətən müharibəsində, əlbəttə, şəhidlər verdik, qazilər ordusu yarandı.**

Lakin xalqın qüruru özünə qayıtdı. İnamı möhkəmləndi. 44 günlük Vətən müharibəsi xalqımızın Azərbaycan adı ətrafında, azərbaycançılıq ideyasına söykəndiyinin əyani təsdiqi oldu. Həqiqətən də Vətən müharibəsində hər bir azərbaycanlı dünyaya Vətəni sevmək örnəyi göstərdi. Əsgər döyüşdə, səngərdə, komandirlər döyüşə ilk atılmaqla, 1991-94-cü illərdə Vətən uğrunda - Qarabağ uğrunda döyüşüb yara alanlar yaralı canları ilə, sıravi vətəndaşlar ön cəbhəyə göndərdikləri sovqatlarla, ağsaqqal təqaüdçülər təqaüdlərinin son qəpiyədək əsgərlərə ərməğan etməklə. Hamı, bütün xalq bir yumruq kimi birləşdi. Və cənab Prezidentin dediyi kimi dəmir yumruq düşmənin başını birdəfəlik əzdi.

Bu gün - sentyabrın 27-si Azərbaycan xalqı məhz o şərəfli tarixin 2-ci ildönümünü yad edir. Bu gün təkcə şəhidlər deyil, Vətən müharibəsinə lap kiçicik də olsa, nəyləsə yardım etmiş, heç nə etməsə belə, dilindəki dualarla əsgərlərimizə dəstək olan sadə insanların da anım günü - bayramıdır.

Bu gün 27 sentyabrın Anım Günü kimi qeyd edilməsiylə bağlı cənab Prezidentin məlum sərəncamını xatırlatmaq yerinə düşür. Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 02 dekabr 2020-ci il tarixli Sərəncamında qeyd edilir: "Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törədib. Həmvətənlərimizin bir çoxu şəhid olub, itkin düşüb, yaralanaraq sağlamlığını itirib. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilib. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırıb, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin".

Anım gününə hazırlıqlara bütün ölkə dünəndən etibarən başladı. Paytaxtda bu hazırlıqları aydın görünürdü. Yaşayış binaları və dövlət qurumlarının yerləşdiyi inzibati binalara dövlət bayraqları asıldı. Sıravi vətəndaşlar da bütün əlamətdar günlərdə olduğu kimi yenə də evlərin pəncərələrində, eyvanlarda üçrəngli, ay-ulduzlu bayrağımızı dalğalandırırlar. Küçələr, prospektlər bayraqlarla bəzənib. Reklam lövhələrində şanlı qələbəmiz əks olunur. Bakı şəhid ruhlarını qarşılamağa hazırdır. Bu gün təhsil müəssisələrində də 27 sentyabr - Anım Günü ilə bağlı tədbirlər təşkil ediləcək, bu günə həsr olunan dərslər keçiriləcək. Bu barədə Elm və Təhsil Nazirliyindən bildirilib. Qeyd olunub ki, təhsil müəssisələrində Anım Günü ilə bağlı konfrans, seminar, mühazirə, "dəyirmi masa", vebinar, açıq dərslər, ədəbi-bədii kompozisiyalar, foto və rəsm sərgiləri, yaradıcılıq müsabiqələri və intellektual oyunların keçirilməsi planlaşdırılır: "Eləcə də məktəblilər arasında idman növləri üzrə yarışların keçirilməsi nəzərdə tutulur".



***"44 günlük müharibədə hər birimiz təkcə burada - Azərbaycanda deyil, dünyada yaşayan azərbaycanlıların Vətənlə yanaşı olduğuna şahidlik etdik"***

**27 sentyabr - Anım Gününün əhəmiyyəti barədə danışan millət vəkili Kəmaləddin Qafarov qeyd etdi ki, bu tarixi gün Azərbaycan xalqının, Azərbaycan Ordusunun Zəfər yürüşünə başlaması ilə əlamətdardır:**

- 44 gün davan edən bu yürüşün sonunda Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, erməni faşizminin başını əzdi. Bu müqəddəs yolda biz də ağır itkilər verdik. Şəhidlərimiz, qazilərimiz oldu. Möhtəşəm tarixi Qələbəmiz məhz bu igid Vətən övladlarının canı, qanı bahasına əldə edildi. Lakin unutmaq olmaz ki, torpaq yalnız uğrunda ölən varsa Vətəndir! İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Məhz bu Qələbə sayəsində bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra müzəffər xalq və qalib ölkə kimi əbədi yaşayacaq. Azərbaycan Ordusu şəhidlərimizin qisasını döyüş meydanında aldı. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. Biz bu Vətən uğrunda canlarından keçmiş igidlərimizi heç zaman unutmayacağıq.

**Millət vəkili qeyd edib ki, 44 günlük Vətən müharibəsində əldə edilən qələbəyə yalnız Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi kimi baxmaq yanlışdır.** Bu tarixi qələbə və bərpa edilən tarixi ədalət ümumən regionda və hətta dünyada yeni reallıqlar yaratdı. Artıq bütün dünya Azərbaycanın Qələbəsi ilə razılaşıb və bu faktı qəbul edib. Dünya dövlətləri Azərbaycanı qalib ölkə kimi tanıyır və bizimlə hesablaşırlar. Dövlətimiz üçün çox riskli bir məqamda Prezident İlham Əliyev öz siyasi iradəsini ortaya qoymaqdan çəkinmədi və birmənalı olaraq bəyan etdi ki, bəli, xalq müharibəyə hazırlaşır, dövlət müharibəyə hazırlaşır. Əgər məsələ həll olunmasa, müharibə yolu ilə bu həll ediləcək! Bunu söyləyərkən cənab Prezident xalqımızın sarsılmaz iradəsinə, ordumuzun şücaətinə bələd idi, bilirdi və inanırdı ki, xalqımız ən çətin, ağır günlərdə birləşərək həmrəy olmağı bacarar. Azərbaycan xalqını birləşdirən dəyər ümummilli lider Heydər Əliyevin təyin etdiyi azərbaycançılıq ideyası idi. Və 44 günlük müharibədə hər birimiz təkcə burada - Azərbaycanda deyil, dünyada yaşayan azərbaycanlıların Vətənlə yanaşı olduğuna şahidlik etdik. Bu ideya ətrafında birləşməyin nəticəsidir ki, bu gün xalqımız alın açıqlığı ilə Anım Gününü qeyd edir, 8 noyabrda isə möhtəşəm Zəfər Gününü yenə qeyd edəcək.

**Mələhət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "ƏDV geri al" layihəsi böyük uğur qazanıb

## "20 faizlik artım o deməkdir ki, insanların nağdsız ödənişlərə marağı artacaq"

**ƏDV üzrə istehlakçılara geri qaytarmaların artırılması ilə bağlı qanun layihəsi Nazirlər Kabinetinə göndərilib.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayevanın sözlərinə görə, qanun layihəsində ƏDV üzrə istehlakçılara geri qaytarmaların artırılması ilə bağlı qaydalar müəyyən edilib. Məqsəd isə nağdsız ödənişləri, istehlakçıları stimullaşdırmaqdır.

Qeyd edək ki, iki ildən çoxdur ki, ticarət və ya iaşə obyektlərindən alınmış mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) bir hissəsi istehlakçılara geri qaytarılır. Vətəndaşların əksəriyyəti "ƏDV geri al" sistemindən istifadə edir.

Hazırda nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizi, nağd qaydada ödənilmiş ƏDV-nin isə 10 faizi istehlakçıya geri qaytarılır.

**İqtisadçı-ekspert Eldəniz Əmirovun "Şərq"ə açıqlamasına görə, son illər ölkəmizdə həyata keçirilən ən uğurlu layihələrdən biri məhz "ƏDV geri al"dır:** "Yeni dövlət məhz bu vasitələrlə həmin sahələrdə də qeyri-qanuni ödənişlərin, vergidən yayınmaların qarşısının alınması iqtisadiyyatın ağardılması prosesində istehlakçıların iştirakını təmin etmək istəyir. Mövcud layihənin digər məqsədi həm də nağdsız ödənişlərin stimullaşdırılmasıdır. Bunun effektini müəyyən qədər görməyə başlamışıq.

Artıq vətəndaşlarımız alış-veriş zamanı ödədikləri vəsaitin vergi qeydiyyatına alınmasında maraqlı tərəf olaraq çıxış etməyə başladı və bu sahədə kifayət qədər müsbət irəliləyiş var. ƏDV ilə bağlı statistika bu sahədə praktiki olaraq uğurlar əldə edildiyini göstərir.

"ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2022-ci ilin sentyabrınadək portalda qeydiyyatdan keçmiş istehlakçılara ümumilikdə 732.105.401 kassa çeki üzrə 305,5 milyon manatdan çox, təkcə bu ilin yanvar-avqust ayları ərzində isə 303.851.384 çek üzrə 133,6 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb. Ödənişlərin leqallaşdırılması artdıqca alıcıların geri aldığı ƏDV-lərin sayı da artır. Təbii ki, burada yeni nəsil kassa aparatlarının sayının artırılması da böyük rol oynayır. Hazırda ölkədə 740 mindən çox nəzarət olunan kassa aparatı var. Bu aparatların mövcudluğu da iqtisadiyyatın ağardılmasına ciddi töhfə verən addımlardan biridir. Yeni nəsil kassa aparatlarından istifadə edən satıcıların sayı da artmaqdadır. Yeni nəsil kassa aparatlarının dövriyyəyə girməsi ƏDV-nin geri alınması ilə bağlı proseslərdə daha çox irəliləyişə səbəb ola bilər.

Son statistikaya görə, onlayn nəzarət kassa aparatları üzərindən 15,3 milyard manatdan artıq dövriyyə həyata keçirilib. Bu da ötən ilin dövriyyəsi ilə müqayisədə 57-58 faiz artım deməkdir. Statistikadan da göründüyü kimi bu sahədə çox ciddi irəliləyişlər müşahidə olunur".

*Nağd qaydada ödənilmiş ƏDV-nin 5 faizə endirilib, nağdsız ödənişlərdən geri qaytarılan məbləğin 20 faizə qaldırılmasına gəldikdə isə ekspert bu təklifi doğru və təqdirəlayiq hal kimi dəyərləndirib:* "20 faizlik artım o deməkdir ki, insanların nağdsız ödənişlərə marağı artacaq. Nağdsız ödənişlərin artması isə dövriyyənin daha şəffaf olması, vergidən yayınmaların qarşısının alınmasına, nağd pul kütləsinin tədricən aradan qalxmasına və vergi yığımına əhəmiyyətli dərəcədə təsir edəcək. Şübhəsiz ki, burada vətəndaşlara da ciddi mənfəətləri olacaq. Əgər ödənən məbləğin 20 faizi, yeni beşdən biri geri qayıdırsa, deməli,18 faizlik ƏDV-nin beşdə dördü vergi olacaq. Yəni nağdsız ödəniş zamanı ƏDV 18 yox, 14,4 faiz olacaq".

**Şəymən**

# Sağlamlığınızdan əmin olun!

## Koronavirusun fəsadları daha çox gözlərə təsir edir

**"COVID-19 insanın bütün orqanlarına, həmçinin gözlərə də təsir edir. 20 faiz hallarda gözdə qaşınma ilə ağrı və işığa həssaslıq pasiyentlərdə koronavirusun yeganə əlamətləri ola bilər". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, oftalmoloq İmran Cərullazadə bildirib. Onun sözlərinə görə, statistikaya görə, COVID-19-la əlaqədar reanimasiya şöbələrində yatan pasiyentlərin təxminən üçdə birində göz patologiyaları müşahidə edilir:**

"Onların arasında konyunktivit, gözdə hiperemiya və hemoz daha çox rast gəlinirdi. Müşahidələr göstərib ki, COVID-19 keçirmiş xəstələr 1-3 ay sonra oftalmoloqa müraciət etdikləri zaman xəstəlikdən sonra yaranan və uzun müddət davam edən gözdə quruluq, yandırma, göz qapaqlarının qızarmasından şikayət edirlər. Həmçinin bərpa dövrünə diqqət yetirməyən pasiyentlərdə görmənin zəifləməsi müşahidə oluna bilər. Buna səbəb göz sinirlərinin atrofiyası, görmə sahəsinin daralması və ən son halda tam korluğa gətirib çıxaran gözün torlu qişasının trombozudur". O qeyd edib ki, koronavirusun sürətlə yayıldığı dövrdə cərrahi əməliyyatların aparılması virusun yayılma riskini dəfələrlə artırırdı: "Bu səbəbdən pandemiya zamanı istənilən əməliyyatlar, o cümlədən göz əməliyyatı, xüsusi sanitar qaydalara riayət edilməklə aparılmalıdır. Oftalmoloji əməliyyat keçirmiş insanlarda COVID-19-un daha çox fəsad və ağırlaşma törətdiyi barədə heç bir tədqiqat yoxdur. Lakin pasiyent əməliyyatdan sonra bərpa dövründə COVID-19-a yoluxubsa, xəstəlik müddəti oftalmoloq nəzarəti də olmalıdır, çünki COVID-19 əlamətləri əməliyyatın nəticəsinə mənfi təsir göstərə bilər. Qoruyucu eynəklərin və tam üz qoruyucu plastik maskaların effektivliyini yoxlamaq üçün ABŞ, Böyük Britaniya, Hindistan, və Kolumbiyada tədqiqat aparılıb. Tədqiqatlarda 7567 məhz yüksək risk qrupuna daxil olan tibb işçisi iştirak edib. Nəticələr qoruyucu vasitələrin effektivliyini təsdiqlədi: SARS-CoV-2 xəstələnmənin səviyyəsi 96 faizdən 40 faizədək azaldı. Kontakt linzalara gəlincə isə əksinə, pandemiya dövründə onlardan imtina etmək tövsiyə olunur. Düzdür, kontakt linzaların taxılması viruslara yoluxma ilə birbaşa əlaqəli deyil. Bununla belə, linzaları olan xəstələr gözlərinə daha tez-tez toxunur, bu da infeksiya riskini əhəmiyyətli dərəcədə artırır". Həkim əlavə edib ki, COVID-19 pandemiyası dövründə göz gigiyenasına xüsusi diqqət yetirilməlidir: "İnfeksiyanın qarşısını almaq üçün əllərinizi tez-tez yuyun, şəxsi gigiyena qaydalarına əməl edin, mümkün olduğu qədər əlinizlə gözlərinizə, burnunuza və ağzınıza toxunmayın. Bundan əlavə, şəxsi gigiyena qaydalarına əməl etməyənlərin təması məhdudlaşdırmaq, xəstəliyin ilk əlamətləri aşkar edildikdə dərhal həkimə müraciət etmək məsləhətdir. Əgər yoluxmuş şəxslə təmasda olmaq məcburiyyətindəsinizsə, o zaman xüsusi qoruyucu eynəklərə üstünlük verilməlidir. Ümumiyyətlə, eynək yalnız güneşli havalarda deyil, soyuq havalarda da istifadə edilməlidir".



***"Bu xəstəlikdən sonra sinir sistemi, bel-onurğa, oynaqlarda ağrılar, bəzi insanlarda eşitmə qabiliyyətinin zəifləməsi baş verir"***

Mütəxəssisin tövsiyələrini ciddiyə almaq vacibdir. Xatırladaq ki, COVİD-19 pandemiyasının tüğyan etdiyi dövrdə Hindistanda "qara göbələk" - göz xəstəliyi yayıldı və minlərlə hindli bu xəstəliyə tutuldu, infeksiya mənbəyi olan gözləri çıxarıldı. O zaman da bu xəstəliyə yaxalananların həyatda qalmaq şansı 100-də 50 dəyərləndirilirdi. Xəstələrin 80 faizi təcili əməliyyata alınır, müalicəsi artıq qeyri-mümkün olanların gözləri çıxarılır, əməliyyat otaqlarında çəkilmiş fotolar dünyanı dolaşır və insanları dəhşətə gətirirdi. Pandemiya artıq sönüb. Lakin sevinərək qaydalara laqeyd yanaşmaq hələ çox tezdir. Virusun hər dəfə yeni ştamları, yeni növləri ortaya çıxır və bunların insanları nə dərəcədə təsir altına ala biləcəyi də məlum deyil. Odur ki, bütün mənfi ehtimalları nəzərdə saxlayaraq gigiyena qaydalarına əməl etmək mütləqdir. Xüsusən, məsələ gözlərlə bağlıdırsa.

**Göz xəstəliklərindən qorunmaq üçün gigiyena qaydalarına əməl etməyin vacib olduğunu deyən Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, sağlamlığın pandemiyadan sonrakı bərpa dövrü çox önəmlidir:**

- Bəzən insanlar tələsir, səbirsiz olur, qızdırma aşağı düşdümü, bir neçə gün qızdırma olmadı, öskürək yumşaldı, elə bilirlər, xəstəlikdən tamam sağalıblar və əvvəlki gündəlik rejimə qayıdırlar. Halbuki, COVİD-19-a çox ciddi yanaşılmalıdır. Biz hər zaman vətəndaşlara tövsiyə edirik ki, koronavirusa yoluxma halı aşkarlanıbsa və müalicə alıblarsa, tam sağaldıqlarına əmin olsunlar. Müayinələrə laqeyd yanaşmasınlar. Bu virus elədir ki, orqanizmdə fəsadlar yarada, ağır izlər qoya bilir. Ola bilsin, insan ilk vaxtlarda bunu hiss etməsin, özünü yaxşı hiss etsin, xəstəliyin əlamətləri itib getsin. Amma sonra, gözlənilmədən xəstəlik geri qayıda bilər, yaxud da başqa orqanlarda fəsadlar ortaya çıxa bilər. Ona görə də müalicə başa çatdıqdan sonra da bir müddət həkim nəzarəti altında olmaq, hələ müalicə davam edirmiş kimi sağlamlığa ciddi diqqət etmək, yan xəstəliklərin olub-olmadığını bilmək üçün müayinələrdən keçmək lazımdır. İstənilən xəstəlik insanı gücsüzləşdirir, orqanizmi zəifledir. Zəif orqanizmdə hansısa digər xəstəlik üzə çıxa bilər. O cümlədən göz xəstəlikləri də. Koronavirusun orqanizmdə bir çox fəsadlar yaratdığı məlumdur. Sinir sistemi, bel-onurğa, oynaqlarda ağrılar, xroniki xəstəliklərin olanlarda müəyyən ağırlaşmalar, o cümlədən də görmə qabiliyyətinin, bəzi insanlarda eşitmə qabiliyyətinin zəifləməsi baş verir. Elə pasiyentlər olur ki, koronavirusdan sağalıblar, amma hələ də iybilmə, dadbilmə qabiliyyətləri bərpa olunmayıb. İnsanlar hər hansı xəstəlik keçiriblərsə, orqanizmin möhkəmlənməsinə çalışmalıdırlar. Güclü orqanizmlərə xəstəlik qalib gələ bilmir. Gözlər orqanizmdə həssas orqandır. Kiçik bir infeksiya, toz parçası gözlərdə ağır fəsadlar yarada bilər. Gözdə sulanma, qaşınma, qızartı, ağrı varsa, görmədə torlanma yaranıbsa, mütləq həkimə müraciət edilməlidir.

**Mələhət Rzayeva**

# Sıxlığın qarşısını almaq üçün ən son variant işə düşdü

## Sərnişinlərin metroya hissə-hissə daxil olması məqsədəuyğundur



**Onsuz da bərbad olan ictimai nəqliyyatımız dərslər başlayandan sonra lap dəhşət olub. Yollarda ucsuz-bucaqsız, marşrut avtobuslarında basabas üzündən uşaqlar dərsə, valideynlər işə gecikir. Vay o günə ki, yuxudan on beşcə dəqiqə gec durub, pik saata düşəsən...**

Hər zaman işə-gücə gecikənlərin ümid yeri olan metrolar da son illər sərnişinləri yarı yolda qoyur. Platformada dayanıb metro vaqonunun yolunu gözləyən sakinlərin gözünün kökü saralır, amma qatar gəlib çıxmır. Gələndə isə adam çoxluğundan minmək mümkün olmur. Bir ümid növbəti qatarı gözləməli olursan ki, bəlkə bu dəfə tale üzümə gülə, heç olmasa, bir ayağımısa qatara yerləşdirə bilərəm. Çünki istəsək də pik saatlarda ikinci ayağımızı qoymağa yer tapmırıq.

Əslində bu yazdıqlarımız yeni bir şey deyil. Metroda sərnişin sıxlığı problemi uzun illərdir, müzakirə edilən, lakin real həlli hələ də tapılmayan problemlərdən biridir.

Amma bu dəfə "Bakı Metropoliteni" QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov mediaya açıqlamasında metroda sərnişin hərəkətinin nəzarətə götürüləcəyi və vətəndaşların platformaya hissə-hissə buraxılacağını açıqlayıb.

Mətbuat katibi deyib ki, Bakı Metropolitenində sıxlığı aradan qaldırmaq məqsədilə bir sıra tədbirlər görülür. Bunlar arasında ən son variant da sərnişinlərin platformaya hissə-hissə buraxılmasıdır: "Belə olan halda qatarlara minik və platforma üzərində hərəkət sayı azalacaq. Vətəndaşlar metroya minən zaman alternativ girişlərdən istifadə etsə, yaxud da "28 May" stansiyasına daxil olmaq üçün "Cəfər Cabbarlı" stansiyasından istifadə etsələr, sıxlıq bir qədər azalar. Bu halda vətəndaşlar təxmini 50 metr artıq yol qət edər. Bunun da qarşılığında metroya girişdə gözləməz".

Guya metroya sərnişinlər hissə-hissə daxil olanda sıxlıq yaşanmayacaq? Ola bilər platformalarda seyrəklik olsun. Bəs girişlərdəki sərnişin axınına necə nəzarət olunacaq. Hər gün işə, məktəbə və s. yerlərə tələsən yüzlərlə insan sıxlıq yaratmayacaq?

Nəqliyyat üzrə ekspert Rauf Ağamirzəyev isə "Şərq"ə açıqlamasında deyib ki, hazırda Bakıda metroya alternativ ola biləcək sərnişindaşıma xidməti mövcud deyil.

### *Ekspert: "Biz çeşidli ictimai nəqliyyat şəbəkəsini yaradıb və inkişaf etdirməliyik. Bakıətrafı kəndlərdən mərkəzə axın edən əhalinin alternativ digər ictimai nəqliyyatı olmalıdır"*

Metrodan istifadə edə bilməyən vətəndaşı daşıya biləcək və vaxtında mənzil başına çatdıracaq alternativ yerüstü marşrut xidməti olmalıdır: "Əslində mən bir ekspert olaraq "Bakı Metropoliteni" QSC-nin mətbuat katibinin açıqlaması ilə razılaşıram. Təhlükəsizlik baxımından sərnişinlərin metroya hissə-hissə daxil olması məqsədəuyğundur. İstənilən halda platformanın və qapıların önü seyrəlməlidir".

Ekspertin sözlərinə görə, indiki halda metroda sərnişin sıxlığını azaltmağın ən optimal yolu yerüstü nəqliyyat infrastrukturunu təkmilləşdirməkdir. İlkin mərhələdə isə ictimai nəqliyyat üçün yaradılan xüsusi marşrut zolaqlarına marşrut avtobuslarından başqa heç bir nəqliyyat vasitəsi buraxılmamalıdır: "Bu sahədə çox böyük boşluqlar var. Mütləq şəkildə sərt nəzarət mexanizmi icra olunmalıdır.

Nisbətən yaxın perspektivdə isə alternativ olaraq yüngül reysli dəmiryol xəttlərinin çəkilməsidir.

Xüsusi marşrut zolaqları ilə bağlı sürücülər bəhanə gətirir ki, beş dəqiqəlik aptekdə saxlamaq lazım olur. Yol kənarlarında ancaq marşrut zolaqları olsa, sürücülərə bu kimi imkanlar yaradılmayacaq. Amma mən sizə Gürcüstan nümunəsini misal gətirmək istəyirəm. Xüsusi marşrut zolaqları yolun hərəkət hissəsinin düz ortasında təşkil olunub. Hətta dayanacaqlar da məhz yolun ortasındadır. Küçələrin infrastrukturu da buna uyğunlaşdırılıb. Hətta yol kənarlarındakı asfalt sahələr yaşıllıqla əvəz olunub.

Əvvəllər şəhər sakinləri buna etiraz edib, yolun daralmasını bəhanə gətirsələr də, sonradan gördülər ki, daha effektivdir. Yol kənarındakı asfalt sahələr heç bir işə yaramayan ölü sahələr idi. Bunun isə ekoloji cəhətdən ancaq mənfi təsirləri olur".

R.Ağamirzəyev hesab edir ki, paytaxt küçələrindəki birtərəfli yollarda əks istiqamətə yalnız marşrut avtobuslarının hərəkətini təşkil etmək olar: "Bizdə ən uzun prospektlərdən biri Azadlıq prospektidir. Bu prospekt Həsən Əliyev küçəsi ilə kəsişən nöqtəyə qədər ikitərəfli fəaliyyət göstərir, oradan üzü dənizə tərəf gələndə isə avtomobillərin hərəkəti birtərəfli qaydada müşahidə olunur. Bu cür küçə və prospektlərdə əks tərəfə yalnız ictimai nəqliyyatın hərəkətini təşkil etməklə sərnişin axınını fərqli istiqamətdə paylaşdıra bilərik".

**Ekspertin fikrincə, metroda sıxlıq yaranmasının əsas səbəblərindən biri də Bakıətrafı ərazilərin hamısının metroya gəlməsidir:** "Biz çeşidli ictimai nəqliyyat şəbəkəsini yaradıb və inkişaf etdirməliyik. Bakıətrafı kəndlərdən mərkəzə axın edən əhalinin alternativ digər ictimai nəqliyyatı olmalıdır. Ən azı mövcud elektrik qatarlarının sayını artırmaq və metrodan istifadə edən vətəndaşların rahat hərəkətini təmin etmək lazımdır. İkinci bir problem isə Qırmızı və Yaşıl xətlərin eyni stansiyada birləşməsidir. Bu xətlərin birləşməsi intervala çox ciddi təsir edir. Mütləq ayrı olmalıdır və hər xəttin ayrıca deposu olmalıdır. Bu, dünyanın bütün ölkələrində belədir . Əslində əvvəllər xətlərin ayrılması ilə bağlı bir layihə vardı, hansısa səbəbdən həyata keçirilmədi. Hazırda bizim bir depomuz var, Nərimanov Elektrik Deposu. Qırmızı və Yaşıl xətlərin deposu oradır. Xocahəsən deposu isə hələ ilin sonunda təhvil veriləcək. Dərnəgül deposu isə hələ inşa edilməyib. Sıxlığı aradan qaldırmaq üçün görüləcək işlərdən ən əsası isə yeni stansiyaların tikintisidir. Təxirə salınmadan "Koroğlu" metrostansiyası ilə "Dərnəgül" metrostansiyası arasında yeni metro xətti tikilməlidir. Amma bizdə metro tikintisi çox uzun çəkir. Bu da Bakının relyefinin mürəkkəb olması ilə bağlıdır. Bu layihələr həyata keçirilənə qədər isə yerüstü nəqliyyatla bağlı vacib olan işlər görülməlidir ki, metroya çox yük düşməsin. İkidayanacaqlı "ekspress" avtobuslar fəaliyyətə başlamalıdır. Sərnişinlər "Dərnəgül" metrostansiyasının qarşısında marşruta minib "Koroğlu" metrostansiyasının qarşısında düşə bilsin. Bunun üçün də aidiyyəti qurumlarımız koordinasiyalı işləməlidir".

**Şəymən Bayramova**



# Məktəblərdə şagird sıxlığı müşahidə olunur

## "Əgər bir sinifdə 30 şagird təhsil alırsa, burda uğurlu tədrisdən söhbət gedə bilməz"

**"Siniflərdə 30-40 nəfər şagirddən ibarət kontingetlə təşkil edilən tədris uğurlu sayıla bilməz. Bu həm tibbi, həm də pedaqoji normativlərə ziddir".**

*Bunu "Şərq"ə açıqlamasında "AzEdu.az" saytının baş redaktoru Elmin Nuri siniflərdə şagird sayının normadan çox olmasına münasibət bildirərkən deyib.*

O bildirib ki, qaydalara əsasən bir sinif otağında 12, istisna hallarda isə 16 şagird təhsil ala bilər:

"Paytaxtın bəzi orta məktəblərində şagird sayı 22- 25 hətta, 30 ola bilir. Hüquqi normativdə isə bir uşağa 2 kvadratmetr yer ayrılmalıdır. Deməli, bir sinifdə 35 şagird varsa, onun ümümi ölçüsü 70 kvadratmetr olmalıdır. Bu isə gözlənilən deyil. Digər tərəfdən sıxlığa nəyin səbəb olması sualı yaranır.

Burada bir neçə amil var. Birincisi, valideynlər məsafəyə fikir vermədən övladlarını təhsilin daha yüksək aparıldığı məktəblərə göndərir. Nəticədə də Nərimanov, Xətai, Nizami, Səbail kimi rayonlarda yerləşən məktəblərdə şagird sıxlığı baş verir. İkinci məqam isə piardır. Bu, eyni ərazidə yerləşən təhsil ocaqlarına aiddir. Bəzi məktəblərdə repetitorluqla məşğul olan, yaxud insanlar tərəfindən tanınan müəllimlər özləri belə istəmədən piar yaratmış olurlar. Bununla da həmin təhsil ocağına gedən uşaqların sayı çoxalır. Digər bir təəssüfləndirici səbəb isə rus bölməsi məsələsidir".

**E.Nuri onu da əlavə edib ki, ölkəmizdə tədrisin sırf rus dilində aparıldığı 17 məktəb var:** "Bəzi tədris ocaqlarında isə rus və Azərbaycan dilləri paralel keçilir. Son zamanlarda da valideyinlər övladlarını kortəbii şəkildə rus bölməsinə yönləndirirlər. Bununla da bu bölmənin tədris olunduğu siniflərdə artım və sıxlıq yaranır. Göründüyü kimi, problemlər bir-biri ilə ziqzaqvari şəkildə əlaqəlidir. Ümumiləşdirəsi olsaq, bu gün şagird sıxlığını yaradan əsas səbəb, məktəblərdə tədrisin eyni səviyyədə keçirilməməsi amilidir".

**Nihat Müzəffər**

# Tarixə Yazılan - 44 günlük müharibə

## Möhtəşəm Zəfər gələcək nəsillər üçün də sevinc mənbəyidir

**Ermənilərin tarixi ərazilərimizdə həyata keçirdikləri soyqırımı siyasətinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu öndərin 1998-ci ildə imzaladığı müvafiq fərmanla 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilib.**

Birinci Qarabağ müharibəsi zamanı xarici havadarları tərəfindən silahlandırılan ermənilər tərəfindən Azərbaycan ərazisinin 20 faizi işğal edilib. İşğal zamanı yaşayış məntəqələri dağıdılaraq, əhalisi amansızcasına qətlə yetirilib. Başlıbel, Ağdaban və Baqanis-Ayrım kəndlərində törədilən vəhşiliklər erməni faşizminin əsl simasını göstərib.

Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar sırasında Xocalı faciəsi xüsusi qəddarlığı ilə seçilir. Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir.

Münaqişənin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunan ATƏT-in Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışıb və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalıb. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmayıb.

Bütün bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirərək, ərazilərimizdə təxribatlar törədib, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açaraq, onların rahat yaşamasına imkan verməyib.

2016-cı ilin aprelində Lələtəpə və 2020-ci ilin iyulunda Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını bəyan etdi. Ermənistan bu döyüşlərdən də nəticə çıxarmayaraq Azərbaycana qarşı diversiyaları davam etdirib, erməni siyasətçiləri tərəfindən aşağılayacı və təxribatçı bəyanatlar verildi. 2020-ci il sentyabrın 27-də isə Ermənistan tərəfindən növbəti hərbi təxribat törədilərək, Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutuldu. Nəticədə hərbi qulluqçularla yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən, 2 uşaq həlak oldu. Sentyabrın 27-də cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı oradakı çıxışında ermənilərin növbəti təxribatının səbəblərini açıqladı. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi.

Öncə qələbə müjdələri Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərindən, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklərdən gəldi. Tərtərin Suqovuşan və Talış kəndləri, Cəbrayılın, Füzulinin neçə-neçə kəndi hərbçilərimizin hünəri ilə geri qaytarıldı. Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur, Xırmancıq, Ağbulaq, Axullu kəndləri alındı. Oktyabrın 18-də artıq Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağı dalğalandı. Gözümüzü televiziya ekranlarından çəkmirdik. Hər gün bir yeni müjdə, bir yeni qələbə xəbəri eşitməyə adət eləmişdik. Cənab İlham Əliyevin xalqa hər müraciəti ilə bir rayonun, bir böyük ərazinin qarı düşməndən təmizləndiyi qalibanə şəkildə bəyan olunurdu.



Ordumuzun döyüş meydanında qələbəsi ilə yekunlaşan ötən hər bir gün Prezident İlham Əliyev də diplomatik cəbhədə inamla döyüşür, ölkəmizə qarşı beynəlxalq təzyiqlərin qarşısını peşəkarlıqla, qətiyyətlə alırdı. "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!" - deyə Prezident İlham Əliyev bildirirdi.

Tezliklə növbə Qubadlıya, Xocalıya, Laçına çatdı. Vətən deyib irəli atılan, ölümün gözünə dik baxan igidlərimiz addım-addım yürüdülər, əzəli-əbədi torpaqlarımızı qarış-qarış, yamac-yamac, kənd-kənd azad etdilər.

Bu, hərbi müstəvidə əldə olunan qələbə idi. Sonra biz siyasi müstəvidə qələbə qazandıq. Ordusunun darmadağın edildiyini, belinin sındırıldığını görən düşmən kapitulyasiya aktına qol çəkməyə məcbur edildi. Bunun ardınca noyabrın 15-də Kəlbəcər, 20-də Ağdam, dekabrın 1-də isə Laçın Azərbaycana döyüşsüz təhvil verildi.

Bununla da dövlətimizin başçısı qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını reallaşdıran, öz fəaliyyətində Azərbaycan dövlətinin maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətə yönəldən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi liderə çevrildi.

Beləliklə, dövlətimizin başçısı 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Möhtərəm Prezidentimizin beynəlxalq aləmdəki informasiya və diplomatiya savaşındakı misilsiz uğurları 44 günlük Vətən müharibəsində şəksiz qələbənin əldə edilməsində həlledici rol oynadı.

Azərbaycan Ordusunun nəyə qadir olduğunu isə əməliyyatların zirvəsində gələn Şuşa savaşı göstərdi. Yeri gəlmişkən, Vətən müharibəsində silahlı qüvvələrimizin cənub istiqamətində irəliləyişləri inkişaf etmiş texnologiyalardan peşəkar istifadə, rəhbərliyin düzgün planlaşdırması nəticəsində həyata keçirilmişdisə, Şuşada bunun üzərinə heyətin şəxsi peşəkarlığı amili də əlavə olundu. Ümumiyyətlə, Azərbaycanın Vətən müharibəsi müasir döyüş tarixində tamamilə yeni bir səhifənin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalanmasından sonra Prezident İlham Əliyev bəyanatında bununla bağlı deyib: "Şuşa şəhəri işğaldan keçən il noyabrın 8-də azad edilmişdir. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan bu sıldırım qayalara baxarkən görür ki, bu şəhəri, alınmaz qala sayılan şəhəri götürmək, azad etmək böyük qəhrəmanlıq, peşəkarlıq, şücaət, fədakarlıq tələb edir. Qəhrəman Azərbaycan əsgərləri qan tökərək, şəhid olaraq, sıldırım qayalara dırmaşaraq, demək olar ki, yüngül silahlarla, əliyalın Şuşanı düşmənin əlindən aldı və Azərbaycan bayrağını ucaltdı".

Müharibə zamanı Azərbaycan humanizm prinsiplərinə, silahlı münaqişələrlə bağlı yazılmamış qanunlara lazımınca əməl etdi. Nə dinc əhalini atəşə tutdu, nə də götürdüyü əsirlərə fiziki iztirablar verdi. Bir dəfə də erməni sakinlərinin qaldığı Xankəndini və digər yaşayış məntəqələrini hədəf seçmədi. Amma qarşı tərəf dəfələrlə Gəncəni, Tərtəri, Bərdəni, Ağdamı, Ağcabədini və təmas xəttindən uzaq olan digər rayonları raket atəşlərinə tutdu, nə qədər dinc sakinin qətlinə bais oldu.

Bütün Vətən müharibəsi boyunca dost ölkələr, xüsusilə də qardaş Türkiyə və Pakistan bizə mənəvi dayaq oldular. Dünya yaxşı bilirdi ki, biz haqq yolundayıq, işimiz haqq işidir. Buna görə də zəfər çalacağıq. Doğrudur, ordumuzun arsenalında olan müasir silahlar, xüsusilə də müharibə günlərində "Qarabağ səmasının qartalı" adlandırılan, erməni hədəflərini məhv edən "Bayraqtar TB2" PUA-ları qələbədə mühüm rol oynadı. Azərbaycanın pilotsuz uçuş aparatlarının erməni hədəflərini necə vur-duğunu göstərən videogörüntülər münaqişədə üstünlüyün vizual rəmzlərindən birinə çevrildi. Azərbaycan Müdafiə Nazirliyi kəşfiyyatçı pilotsuz təyyarələrin çəkdiyi düşmən mövqelərini, pilotsuz aparatların kameraları ilə obyektivə alınan videoları və ya "kamikadze dronları" tərəfindən ötürülən kadrları yayımladıqca, bu dronların hədəfi atəş açmadan, ona çırpılmaq yolu ilə məhv etdiyini göstərən səhnələri nümayiş etdirdikcə modern təchizat və döyüş üsullarının həlledici amil olduğunu hamı görürdü.

Amma yenə də əsas güc əsgər, gizir və zabitlərimizin üzərinə düşürdü. Cavan canlarına qıyaraq vətən naminə misilsiz rəşadətlər göstərən şəhidlərimiz, qazilərimiz zəfəri, ilk növbədə, özlərinin qızırğalanmadıqları qızıl qanları ilə qazandılar. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, rəşadətli ordumuzun fədakarlığı, xalqımızın qeyrəti sayəsində buna nail olduq.

Artıq İkinci Qarabağ savaşının başlanmasından düz iki il ötür. 44 günlük zəfər yürüşü ilə ərazi bütövlüyümüzün təmin olunduğu həmin dövr tarix kitablarında qeyd ediləcək, gələcək nəsillərə nümunə göstəriləcək. Üstündən qaçqın və məcburi köçkün adı götürülən, artıq bu il öz rayonlarının işğal günlərini kədərlə qeyd etməyən soydaşlarımız azad dədə-baba yurdlarına qayıdırlar. İndi işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Həsrətin sona çatmasına az qalıb. Azərbaycan kənardan heç bir kömək almadan Qarabağın əvvəlki həyatını özünə qaytarmaqdadır.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın şəxsi diqqəti və nəzarəti ilə düşməndən təmizlənən bölgələrdə yerli və xarici mütəxəssislərin iştirakı ilə bütün tarixi, mədəni, dini abidələrimiz, eləcə də digər xalqlara məxsus inanc yerləri bərpa olunaraq əvvəlki görkəminə qaytarılır, Azərbaycanın zəngin xəzinəsi kimi gələcək nəsillərə ötürülür.

Bu gün biz iftixarla deyə bilərik ki, xalqımızın şərəf və ləyaqət tarixinin qızıl hərflərlə yazılmış səhifələri olan 44 günlük Vətən müharibəsi və qazanılan möhtəşəm Zəfər gələcək nəsillər üçün də əbədi sevinc mənbəyidir.

**Pərvanə Rüstəmova,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı**

**Elan**

Bakı şəhəri, Nəriman Nərimanov rayonu, Rəşad Qafurov 20 ünvanında, Bərəkət İnşatçı MTK-ya məxsus binanın "117" saylı mənzilin sahibi Bayramov Əli Yusif oğluna məxsus zirzəmidə yerləşən 20 kv metr qeyri-yaşayış sahəsinin müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəriman Nərimanov rayonu, Rəşad Qafurov 20 ünvanında, Bərəkət İnşatçı MTK-ya məxsus binanın 2-ci mərtəbəsinə aid olan VM-investment məxsus zirzəmisində yerləşən 2 ədəd qeyri-yaşayış sahəsinin (18 və 36 kv metr) müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Qərb Universiteti tərəfindən 2003-2007-ci ilin məzunu Sərdarova Aygün Oktayevnaya verilmiş diplom itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2763**



## Xalq artisti şeirlərini tənqid etdi

### Elza isə Rasim Balayevin alnından öpdü

**Əməkdar artist Elza Seyidcahan bir müddət əvvəl onun şeirlərini tənqid edən Xalq artisti Rasim Balayevlə "Ötən günlər" proqramında bir araya gəlib.**

Bununla bağlı müğənni sosial şəbəkədə foto paylaşıb. Diqqət çəkən məqam isə E.Seyidcahanın aktyorun alnından öpməsi olub. O, bununla sənətçidən incimədiyini nümayiş etdirib.

Qeyd edək ki, Rasim Balayev bəstəkar-müğənninin şeirlərini haqda danışarkən "Ona deyən yoxdur ki, işinlə məşğul ol? Sən şair deyilsən. Bu şeirlər efirlik deyil" sözlərini demişdi. E.Seyidcahan isə cavab olaraq "Rasim Balayevə təşəkkür edirəm, oxucumdur, məni müzakirə edir. Mənim kimi böyük şairi şəxsiyyətli aktyor, xalqımızın gözəl sənətkarı müzakirə edirsə, mənim üçün fəxrdir. Rasim bəy, oxumağa davam edin. Sizi çox istəyirəm, məni tənqid edin".

## Robben supermarketdə işləyə bilər



**Niderland millisinin və Almaniya "Bavariya"sının sabiq futbolçusu Aryen Robben supermarketdə menecer işləyə bilər.**

"Report"un məlumatına görə, veteran yarımmüdafiəçi bu barədə "De Telegraaf" nəşrinə açıqlama verib.

O, gələcəkdə baş məşqçi və ya texniki direktor kimi fəaliyyət göstərə biləcəyini də istisna etməyib.

Qeyd edək ki, karyerası ərzində ölkəsinin PSV və Qroningen, İngiltərənin "Çelsi", İspaniyanın "Real Madrid" klublarında çıxış etmiş Aryen Robben ötən il karyerasını başa vurub.

## 5 ildən sonra...

### Rihanna ilk konsertini verəcək



**Ulduz müğənni Rihanna 5 ildən sonra ilk konsertini verəcək.**

**Bu barədə o, sosial media hesabında paylaşım edib. İfaçı "Super Bowl 2023"də çıxış edəcəyinə işarə edib. Bundan başqa, Rihannanın sözügedən konsertdə yeni albomunu təqdim edə biləcəyi də deyilir.**

***Qeyd edək ki, milyarder müğənninin reper nişanlısı Eysap Rokidən (Rakim Mayers) bir oğlu var.***

## Üzük daxil 2 milyon dollar xərcləyib

### Ebru Gündeş özündən 19 yaş kiçik sevgilisinə ərə gedir





**Türkiyəli müğənni Ebru Gündeşlə iraqlı iş adamı Rassan Xoşnav evlənir.**

**İş adamı özündən 19 yaş böyük ifaçıya 1.8 milyon dollarlıq təkdaş üzüklə evlilik təklifi edib.**

**Təklif üçün Rassan Dubayda dünyanın ilk yeddiulduzlu oteli olan "Burj Al Arab"ın ən üst qatını, kral dairəsini seçib. Ümumilikdə Xoşnav "Khoshnaw" brendindən olan üzük daxil 2 milyon dollar xərcləyib. E.Gündeş isə ona "Hə" cavabı verib.**

***Qeyd edək ki, Ebru daha əvvəl iş adamı Rza Zərrabla evli olub. Onların bir qız övladı var.***

## Ulduzların xoş günü...

### Amine Gülşə və Məsut Özilin qızları dünyaya gəlib





**Türkiyə gözəli Amine Gülşə və ulduz futbolçu Məsut Özil ikinci dəfə valideyn olmağın xoşbəxtliyini yaşayıblar.**

**Cütlüyün qızları dünyaya gəlib. 2019-cu ildə Məsut Özillə ailə quran Amine Gülşə ikinci dəfə ana olub.**

**2014-cü ildə "Miss Türkiyə" seçilən Gülşə qız övladı dünyaya gətirib. Məsut Özil şad xəbəri sosial media hesabında açıqlayıb. Özil şəklin altına "Allaha şükür, sağ-salamat dünyaya gəldin, gözəl qızımız Ela" qeydini yazıb. Məsut Özil və Əmina Gülşənin ilk övladı Eda 2020-ci ildə dünyaya gəlib.**

**Turan**



# Heyrətamiz qəbilə toyu

## Nəmərləri sayıb bitirə bilməyiblər





**Türkiyənin Şırnak bölgəsində tayfa-qəbilə adətinə uyğun 2 gün 2 gecə toy çalınıb. 5 min nəfərin iştirak etdiyi məclisdə toy sahibləri nəmərləri sayıb bitirə bilməyib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, haqqında danışılan toy mərasimi Şırnakın Beytüşşəbap əyalətinin Mutluca kəndində olub. Jirki tayfasına mənsub Həsən Ötərin oğlu Erkan ilə Yusuf Adıyamanın qızı Viyana evlənib. Bu toy üçün ev sahibləri 750 min TL məsrəf ediblər, gəlin və bəyə ümumilikdə 1 milyon 150 min türk lirəsi dəyərində qızıl hədiyyə edilib. Toyda bu qızıllar gəlin və bəyin libasları üzərinə taxılıb. Toy yeməkləri üçün 950 kiloqram ət istifadə edilib. Toy sahibi Muxtar Səbahəddin Ötər isə övladının xoş gününə 5 min insan qatıldığı üçün özünü xoşbəxt saydığını deyib.

Toyda ölkə ilə yanaşı, xaricdən də xeyli sayda vətəndaş iştirak edib. Gevdan, Mamhuran, Kaşuran və Göyan tayfalarının üzvləri ilə yanaşı minlərlə qonaq türk bayrağı altında ayulduzlu rəqs edib. Kato dağının ətəyində yerləşən kənddə əmin-amanlıq mühitinin yaradılması ilə vətəndaşlar gecə saatlarına qədər əyləniblər.

Beytüşşebap İlçe Baş məmuru Kamal Ülkü gənc cütlüyün toya qatıldığını və halay rəqs etdiyini bildirib. Ülkü, "Sülh və güvən mühitinin qurulması və inşallah vətəndaşlarımızın xoşbəxt və ağrılı günlərində yanında olacağıq. Gözəl bəy və gəlinimizə xoşbəxtlik arzulayıram", - deyə o bildirib.

Toy sahibi Muxtar Sebahattin Ötər toya gələn bütün qəbilə üzvlərinə təşəkkürünü bildirib. Ötər, "Hilal-ulduzlu türk bayrağımızın dalğalanmadığı yerdə sülh yoxdur. Ona görə də toylarımızın vazkeçilməzidir. Toyumuzda 950 kilo ət bişirdik. Mərasimdə 5 min insanın iştirak etdiyini görəndə çox sevindim. Allah hər kəsə rəhmət eləsin", - deyə o bildirib.

**Məlahət**



# Ətirlər əhvalı dəyişir

## Qoxular gözəl xatirələri də geri qaytara bilər



**Ətirlər əhvalımızı dəyişməkdə kifayət qədər təsirlidir. Burnumuza dəyən bir qoxu xatirələri geri qaytara bilər və ya əhvalımızı tamamilə dəyişə bilər. Qoxuların gündəlik həyatımıza təsirindən xəbərsiz ola bilərsiniz, ancaq tək bir qoxu bütün əhvalınızı dəyişə bilər.**

Ətirlər xatirələrlə iç-içədir. Yaddaşa nə qədər güclüdürsə, o qoxunun sizi o ana aparması ehtimalı bir o qədər yüksəkdir. Sizi pis hiss etdirən və ya travma keçirən bir hadisəni xatırlamaq istəmirsinizsə, bu xatirə ilə əlaqəli qoxulardan uzaq durun.

Təbii ki, qoxular gözəl xatirələri də geri qaytara bilər. Əgər xoş anlarınızı xatırlamaqda çətinlik çəkirsinizsə, o xatirələrlə əlaqəli qoxuları hiss edin. Nənənizi xatırlamaq istəyirsinizsə, onun uşaq vaxtı sizin üçün bişirdiyi tortu hazırlamağa çalışın.

Bəzi səhərlər pis əhval-ruhiyyə ilə oyanırsınız, bu, tamamilə normaldır. Ətirlərdən istifadə etməklə bu əhval-ruhiyyədən çıxmaq mümkündür. Sevimli ətrinizi dərinizə səpin və günə xoş ətirlə başlayın.

Ev orada yaşayan insan haqqında çox şey deyir. Evə girən kimi sizi qarşılayan qoxu yorğun bir günün ardından əhvalınızı dəyişə bilər. Bəyəndiyiniz qeydləri müəyyən etsəniz, əhvalınızı dəyişmək daha asan olacaq. Əgər çiçək tonlarını sevirsinizsə, bu notlarla hava təravətləndirici əldə edə bilərsiniz.

**Turan**

## Eşq iddialarından sonra onu "sildi"

**Xəbər verdiyimiz kimi, məşhur model Cici Hadidin Hollivud ulduzu Leonardo Di Kaprio ilə münasibətdə olduğu iddia edilir.**

Axşam.az xəbər verir ki, şayiələrin ardından modelin keçmiş sevgilisi, müğənni Zayn Malik onu sosial şəbəkədə izləmədən çıxarıb. Lakin Cici hələ də onu izləmədə saxlayıb.

*Qeyd edək ki, Zayn Cici evdə olmayanda içəri girmək istəyən anası İlondanı vurub. Bundan sonra cütlük ayrılmaq qərarı alıb. Onların Xain adlı bir qızları var.*



## Serdar Ortaçdan etiraf




**Doğu Dəmirkolun təqdimatı ilə "Starda Sıradan Şou"nun qonağı olan Serdar Ortaç aldanma sualı qarşısında etirafı ilə hər kəsi təəccübləndirib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, tanınmış aktyor və komediya ustası Doğu Dəmirkolun təqdimatı ilə "Star"da nümayiş olunan "Ordinary Show"un qonaqları reper Norm Ender, müğənni Simge Sağın və Serdar Ortaç olub. Gülüş selinin yaşandığı proqrama Serdar Ortaçın etirafı damğa vurub. Doğu Dəmirkol Serdar Ortaca "Heç aldandınmı" sualını verib. Məşhur müğənni suala xoşagəlməz xatirə ilə cavab verib. Ortaç evliliyindən əvvəl münasibətlərində gözlənilməz hadisə ilə qarşılaşdığını deyib: "Evlənməmişdən əvvəl litvalı sevgilim var idi. Yatdıq, oyandıq, çarpayının altında şişkinlik hiss etdim. Qız tualetə düşdü. Münasibətimizin yeddinci ayıdır. Qıza dəlicəsinə aşiqəm. Çarpayının üstündəki döşəyi və gündəliyi gördüm. Qız gündəlik saxlayırdı. Gündəliyi açdım. Litva dilində nəsə yazılıb. Dedim ki, bunları tərcümə edim. Gündəliyin şəklini çəkdim və ertəsi gün tərcüməçi tapdım. Mətnləri tərcümə etmişdim. Dəftərin 3-cü səhifəsində "Mənim burada nə işim var? Evə gələndən sonra Türkiyədə nə işim var. Mən niyə 6 aydır bu oğlanla buradayam? Allah mənə kömək olsun". Bu, aldanmaqdan daha pisdir. Üzümə də, yanımda qalma, getdiyin yerdə nə istəyirsən elə. Amma bunu yazma. Məncə aldadılmışam. Bu, aldatmaqdan da pisdir. "Mənim burada nə işim var?" -deyir qiz. 7 aydır qoynumdasan. Ona o qədər aşiq oldum ki, hec vaxt bu haqda fikirləşməmişəm?".

**Turan**

## Kraliça Elizabetin məzarı

### Cümə axşamı ziyarətə açılacaq



**Həyata 96 yaşında vida edən Kraliça II Elizabetin məzarından ilk görüntülər paylaşılıb.**

"NTV, com.tr" xəbər verir ki, ötən həftə dəfn mərasimi gerçəkləşən kraliça Müqəddəs Georgi kapellasında mərhum həyat yoldaşı şahzadə Filipplə eyni məzar daşını paylaşır. Məzar cümə axşamı ziyarətə açılacaq. Məzarın fotoları Bukingem sarayı tərəfindən paylaşılıb. Qədim xristian ənənəsinə uyğun olaraq kapella kilsədə müqəddəs ərazi sayılan yerlərdən biridir. Belə yerlərdə adətən önəmli şəxsiyyətlər dəfn edilir. Kraliça II Elizabet, həyat yoldaşı şahzadə Filipplə yanaşı, məzarüstü lövhədə kraliçanın atası VI Georgi və kraliçanın anasının da adları var. Kraliçanın bacısı şahzadə Margaret də burada dəfn olunub. Qeyd edilir ki, üzərində oymalar olan qara mərmər Belçikadan gətirilib. Qeyd edək ki, kraliça II Elizabetin həyat yoldaşı şahzadə Filipp, vəfat etsə də indiyədək dəfn edilməmişdi. Onun dəfni üçün kraliçanın ölümünü "gözləyirdilər". Bütün bu müddət ərzində şahzadə Filippin cənazəsi kapellada xüsusi nəzarət altında saxlanırdı. Kraliça vəfat etdi və həyat yoldaşının cənazəsi də nəhayət məzara gömüldü. Məzarın ziyarəti ödənişli olacaq. 26.50 - 28.50 sterling dəyərində.

**Məlahət**